Xalqın qəzeti!

# Xalq qəzeti

№ 18 (30712) 28 yanvar 2025-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

# Dostluq və əməkdaşlıq Azərbaycanın xarici siyasətinin prioritetidir

## Prezident İlham Əliyev Sloveniya səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Sloveniya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Qorazd Rençelin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Səfir Qorazd Rençel, ilk növbədə, COP29-un uğurla keçirilməsi və əldə olunmuş nailiyyətlər münasibətilə təbriklərini dövlətimizin başçısına çatdırdı.

Təbriklərə görə minnətdarlığını bildirən Prezident İlham Əliyev bu konfransın hazırlıq işlərinə az müddət qalmasına baxmayaraq, Azərbaycan tərəfindən həmin tədbirin uğurla təşkil olunduğunu vurğuladı, COP29-un ölkəmizdə indiyədək keçirilən ən böyük beynəlxalq tədbir olduğunu məmnunluqla qeyd etdi. Sloveniyanın bu tədbirdə fəal iştirakını yüksək qiymətləndirən dövlətimizin başçısı COP29-da təmsil olunan xeyli sayda ölkələr arasında konsensusun əldə edilməsinin önəminə toxundu, tədbir çərçivəsində beynəlxalq iqlim gündəliyinin irəli aparılması üçün səmərəli nəticələrin olduğunu vurğuladı.

Prezident İlham Əliyev ikitərəfli münasibətlərimizin yaxşı tarixə malik olduğunu deyərək, iki ölkənin dövlət başçılarının qarşılıqlı səfərlərini xatırladı və bu səfərlər zamanı müxtəlif istiqamətlər üzrə məhsuldar müzakirələrin aparıldığını məmnunluqla qeyd etdi. Dövlətimizin başçısı əməkdaşlığımızın bundan sonra da möhkəmlənəcəyinə əminliyini bildirdi.

Görüşdə Azərbaycanla Sloveniya arasında siyasi dialoqun dinamik surətdə inkişaf edəcəyinə ümidvarlıq ifadə olundu, yaxın vaxtlarda iki ölkənin xarici işlər nazirləri arasında siyasi məsləhətləşmələrin və iqtisadi əməkdaşlıq məsələləri üzrə işçi qrupunun toplantısının keçiriləcəyi bildirildi, yüksəksəviyyəli qarşılıqlı səfərlərin təşkil olunacağı qeyd edildi.

Səfir Azərbaycanın Cənubi Qafqaz regionunda, həmçinin Trans-Xəzər nəqliyyat dəhlizində mühüm rola malik ölkə olduğunu vurğuladı.

Söhbət zamanı Azərbaycanla Sloveniya arasında enerji sahəsində əməkdaşlığın inkişafına toxunuldu, Azərbaycan qazının Sloveniya bazarına çatdırılması əlaqələrimizin inkişafında mühüm addım kimi dəyərləndirildi.

Görüşdə Azərbaycan-Avropa İttifaqı əlaqələrinin perspektivlərinə dair fikir mübadiləsi aparıldı.

# İrəvan yenə odla oynayır

## *Paşinyanın sözdən o tərəfə keçməyən ikiüzlü bəyanatları*



**“Ermənistanın strategiyası regionda hər hansı eskalasiyaya yol verməmək, müharibəni və ya, ən azı, onun legitimliyini istisna etməkdir”.**

Bakı da bunu deyir. Qarşıdurmadan çəkinmək, bölgədə sülhə və sabitliyə nail olmaq, bütün tərəflərə fayda gətirəcək birgə əməkdaşlığa başlamaq Azərbaycanın irəli sürdüyü tezislər, İrəvana etdiyi çağırışlardır. Amma nə yazıq ki, Paşinyan hökuməti bu çağırışlara yuxarıda misal çəkdiyimiz gəlişigözəl sözlərlə cavab verir.

Ermənistan baş naziri Nikol Paşinyan İctimai Televiziyaya müsahibəsində daha sonra bunları da ərz edib: “Bizim qəbul etdiyimiz strategiyanın ən mühüm nüanslarından biri odur ki, biz başa düşürük ki, regionda və ondan kənarda qarşısına yeni eskalasiya yaratmaq vəzifəsini qoyan qüvvələr var”.

Paşinyanın bu açıqlaması da Bakının dəfələrlə bəyan etdiyi xəbərdarlıq mesajları ilə üst-üstə düşür. Amma yaxşı olardı ki, bu kontekstdə real vəziyyəti “düzgün analiz edən” hayların baş naziri sözdən bir az irəli gedib, bölgədə eskalasiya yaratmaq istəyən qüvvələrin adlarını çəkəydi. Bunun əvəzində isə Paşinyan söz oyununa üstünlük verir. Bölgədə eskalasiyanın yaranması ehtimallarının mühüm hissəsi məhz Hayastan rəhbərliyinin qeyri-diplomatik davranışı, faydasız “linqvistik mübahisəsi” ilə bağlıdır.

*(ardı 5-ci səhifədə)*

# Xəzərdə polad neft adası

## *11 ildə “Qərbi Çıraq” platformasından 33 milyon ton “qara qızıl” çıxarılıb*



**“Əsrin müqaviləsi” çərçivəsində ilkin neftin hasilatına başlanıldığı “Çıraq” yatağının qərb cinahında yerləşən ehtiyatların işlənməyə cəlb edilməsi məqsədilə 2010-cu il martın 9-da konsorsiumun rəhbər komitəsi tərəfindən yeni bir qərar qəbul edilib. Bununla da, dəyəri 6 milyard dollar olan daha bir neft layihəsinin icrasına start verilib.**

Həmin il iyunun 21-də 20 qazma kəsiyi və 4 istiqamətləndirici dirəyi olan 218 tonluq öncə qazma tavası tam təhlükəsiz şəkildə dənizin dibində quraşdırılıb. 2012-ci il oktyabrın 20-də “Qərbi Çıraq” platformasının dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunun tikinti-quraşdırma sahəsinin yanalma limanında təhlükəsiz şəkildə “STB-1” daşıma barjasına yüklənib. 2013-cü il mayın 3-də dayaq bloku dənizdə, sentyabrın 16-da isə platformasının üst modulları dayaq blokunun üzərində quraşdırılıb. 2014-cü il yanvarın 28-də isə “Qərbi Çıraq”dan hasilat başlanıb.

*(ardı 7-ci səhifədə)*

# Yeni alternativ yol paytaxtın mərkəzində sıxlığı azaldacaq



Səhifə ⇨ 10

# “Erməni soyqırımı”: artist Paşinyan və Aznavurun “xəyanət”i

## *Nikol nəyə görə qınanır?*

**Ermənistanın İsveçrədə səfiri, BMT-də və YUNESCO-da nümayəndə olmuş erməni əsilli məşhur fransız musiqiçi Şarl Aznavur 2013-cü ildə, yəni qondarma “erməni soyqırımı”nın 100 illiyinə hazırlığın getdiyi bir vaxtda gözlənilməz bəyanat səsləndirmişdi. O, jurnalistlərlə söhbətində bildirmişdi ki, “soyqırımı” sözünə tüpürmək istəyir.**




Ş.Aznavur Türkiyənin 1915-ci il hadisələrini tanıyıb-tanımamasının onun vecinə olmadığını demiş, buna görə qınaqlara, təhqirlərə və digər aşağılayıcı rəftara tuş gəlmişdi. İndi Ermənistanın baş naziri Nikol Paşinyan da, təxminən, Ş.Aznavurun günündədir. Əlbəttə, birincinin ikincidən nə dərəcə səmimi olduğunu, ümumən səmimi mövqe tutduğunu söyləmək mümkünsüzdür. Fikrimizi əsaslandıracağıq.

*

Hələlik isə deyək ki, N.Paşiyan Davos İqtisadi Forumu ilə bağlı İsveçrədə olarkən bu ölkənin Sürix şəhərində erməni diasporunun yerli təmsilçiləri ilə görüşüb və həmin görüşdə “soyqırımı” məsələsinin yenidən araşdırılmasının zəruriliyinə dair bəyanat səsləndirib. Onun bildirdikləri həm Ermənistandakı revanşist kəsim, həm də xaricdəki erməni millətçi təşkilatlarının təmsilçiləri tərəfindən hiddətlə qarşılanıb.

Bəri başdan deyək ki, Nikol əvvəllər də bu mövzuda söz açıb. Məsələn, o, ötən il “erməni soyqırımı” travmasını aradan qaldırmağın və itirilmiş vətən axtarışlarını dayandırmağın vacibliyini vurğulayıb: “Birinci Dünya müharibəsi zamanı böyük faciə baş verib və dövlətçiliyi olmayan, əsrlər əvvəl öz dövlətçiliyini itirmiş, dövlətçilik ənənəsini unutmuş, geosiyasi intriqaların və yalan vədlərin qurbanı olmuş erməni xalqı, ilk növbədə, dünyanı və onun qaydalarını özü üçün başa düşülə bilən siyasi ağıldan məhrum idi”.

*(ardı 5-ci səhifədə)*

## Hay sevdalı USAID-in də “kitab”ı bağlanır




Səhifə ⇨ 8

## Keçmiş ortaqlarla yeni əməkdaşlıq



Səhifə ⇨ 7

## Fələstinlilər Qəzzanın şimalına qayıdırlar



Səhifə ⇨ 11

# Prezident İlham Əliyev Qvineya səfirinin etimadnaməsini qəbul edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Qvineya Respublikasının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Umar Kandenin etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini dövlətimizin başçısına təqdim etdi.

Prezident İlham Əliyev səfirlə söhbət etdi.

Dövlətimizin başçısı siyasi və iqtisadi əlaqələrimizin uğurla inkişaf edəcəyinə ümidvarlığını bildirərək, ölkələrimizin bir sıra beynəlxalq təşkilatlarda, o cümlədən BMT-də, İslam Əməkdaşlıq Təşkilatında, Qoşulmama Hərəkatında fəal və uğurlu əməkdaşlıq etdiklərini dedi, bu çərçivədə qarşılıqlı dəstəyə əsaslanan əlaqələrimizin bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev əməkdaşlığımızın cəlbedici sahələrinin müəyyənləşdirilməsinin də zəruriliyini qeyd etdi.

Ölkəmizdə Afrikadan çoxsaylı tələbələrin təhsil aldığını deyən dövlətimizin başçısı Azərbaycanın Qoşulmama Hərəkatına və İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərdən olan tələbələr üçün təqaüd proqramları təqdim etdiyini bildirdi, qvineyalı tələbələrin də bundan yararlana biləcəklərini vurğuladı.

Prezident İlham Əliyev Azərbaycanın özünün ASAN və DOST xidmət təcrübəsini bir sıra ölkələrlə bölüşdüyünü qeyd edərək, bu sahədə Qvineya ilə də əməkdaşlıq imkanlarının olduğunu dedi.

Xoş sözlərə görə minnətdarlığını bildirən səfir, ilk növbədə, Qvineya Respublikasının Prezidenti Mamadi Dumbuyanın salamlarını dövlətimizin başçısına çatdırdı.

Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Qvineya Prezidentinə çatdırmağı xahiş etdi.

Səfir Umar Kande Qvineya Prezidenti və ölkəsi adından təyyarə qəzası ilə bağlı Azərbaycan Prezidentinə və xalqına başsağlığını çatdırdı.

Umar Kande ölkəsinin Azərbaycanla müxtəlif sahələrdə əməkdaşlığın həyata keçirilməsində maraqlı olduğunu dedi və ölkəmizlə strateji tərəfdaşlığın qurulacağına ümidvar olduqlarını bildirdi. O qeyd etdi ki, bu isə öz növbəsində xüsusilə də BMT-də, İslam Əməkdaşlıq Təşkilatında və Qoşulmama Hərəkatında müştərək təşəbbüslərin irəli sürülməsinə xidmət edəcək. Beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrimizdən məmnunluğunu ifadə edən səfir ölkələrimiz arasında təhsil, mədəniyyət, elektron hökumət sahələrində əməkdaşlıq üçün yaxşı imkanların olduğunu vurğuladı.

Söhbət zamanı ölkəmizin aidiyyəti iqtisadi qurumları ilə birbaşa əlaqələrin yaradılmasının, iqtisadi əməkdaşlıq perspektivlərinin araşdırılmasının və onun inkişaf etdirilməsi üçün iqtisadi sahə üzrə nümayəndə heyətlərinin mübadiləsinin vacibliyi qeyd olundu.

# Prezident İlham Əliyevin İsrail İqtisadi Forumunun həmtəsisçisi və İdarə Heyətinin üzvü ilə görüşü



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də İsrail İqtisadi Forumunun həmtəsisçisi və İdarə Heyətinin üzvü Conatan Misneri qəbul edib.**

Dövlətimizin başçısı Azərbaycanda tarixən olduğu kimi bu gün də müxtəlif dinlərin və konfessiyaların, o cümlədən yəhudi icmasının nümayəndələrinin dostluq, əmin-amanlıq və harmoniya şəraitində yaşadıqlarını vurğuladı. Prezident İlham Əliyev qeyd etdi ki, bu, xalqımızın həyat tərzi olmaqla yanaşı, eyni zamanda, Azərbaycan dövlətinin həyata keçirdiyi siyasətin tərkib hissəsidir.

Dövlətimizin başçısı vurğuladı ki, Azərbaycan öz təcrübəsindən çıxış edərək dünya səviyyəsində də dinlərarası və mədəniyyətlərarası dialoqun təşviqində mühüm rol oynayır, bundan sonra da öz töhfəsini verməkdə davam edəcək.

Qonaqlar Azərbaycanda tarixən yəhudi icmasının nümayəndələrinin dinc şəraitdə yaşamaları üçün yaradılmış şəraitə görə dövlətimizin başçısına minnətdarlıqlarını bildirdilər.

Onlar ölkəmizə səfər çərçivəsində, həmçinin Quba rayonuna da gedəcəklərini və oradakı yəhudi icmasının yaşayış şəraiti ilə yerində tanış olacaqlarını dedilər.

Azərbaycanın işğaldan azad olunmuş torpaqlarına səfər etdiklərini vurğulayan qonaqlar həmin ərazilərimizdə qısa müddətdə həyata keçirilən bərpa-quruculuq işlərinin onlara böyük təəssüratlar bağışladığını qeyd etdilər.

Bu səfər çərçivəsində dünyanın müxtəlif ölkələrindən çoxsaylı yəhudi iş adamlarının ölkəmizə gəldiyini deyən qonaqlar Azərbaycanın biznes və investisiya üçün cəlbedici ölkə olduğunu vurğulayaraq, bu sahədə əməkdaşlığın perspektivlərini müzakirə etdilər.

Görüşdə Azərbaycan-İsrail və Azərbaycan-ABŞ əlaqələrinin perspektivləri barədə fikir mübadiləsi aparıldı.

***AZƏRTAC***

# Avstraliya İttifaqının General-qubernatoru Zati-aliləri xanım Samanta Mostinə

**Hörmətli xanım General-qubernator!**

Avstraliya İttifaqının milli bayramı münasibətilə Sizi və xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, dövlətlərarası münasibətlərimizin və qarşılıqlı faydalı əməkdaşlığımızın genişləndirilməsi yolunda birgə səylərimizi bundan sonra da ardıcıl şəkildə davam etdirəcəyik.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Avstraliya xalqına daim əmin-amanlıq və rifah arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 23 yanvar 2025-ci il**

# M.Q.Musayevin "Şöhrət" ordeni ilə təltif edilməsi haqqında

## *Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasında sahibkarlığın inkişafı sahəsində uzunmüddətli səmərəli fəaliyyətinə görə Məmməd Qurban oğlu Musayev "Şöhrət" ordeni ilə təltif edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

# "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 fevral tarixli 1045 nömrəli Sərəncamında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

"Azərişıq" Açıq Səhmdar Cəmiyyəti haqqında" Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 10 fevral tarixli 1045 nömrəli Sərəncamının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 2, maddə 177 (Cild I) 5-ci hissəsi ləğv edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

# Belarus Respublikasının Prezidenti Zati-aliləri cənab Aleksandr Lukaşenkoya

**Hörmətli Aleksandr Qriqoryeviç!**

Belarus Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Seçkilərdə inamlı qələbəniz Sizə yüksək etimadın, Belarus xalqının Sizin dövlətçiliyin və hüquq qaydasının möhkəmləndirilməsinə, ölkə əhalisinin rifahının yaxşılaşdırılmasına, cəmiyyət həyatının bütün sahələrində demokratik dəyişikliklərin həyata keçirilməsinə yönəlmiş ardıcıl kursunuzu dəstəkləməsinin təzahürüdür.

Əminəm ki, birgə səylərimiz Azərbaycan ilə Belarus arasında ənənəvi dostluğun, hərtərəfli əməkdaşlıq münasibətlərinin möhkəmlənməsinə və genişlənməsinə, xalqlarımızın və ölkələrimizin rifahı naminə qarşılıqlı faydalı əməkdaşlığın inkişafına bundan sonra da töhfə verəcəkdir.

Hörmətli Aleksandr Qriqoryeviç, Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dost Belarus xalqının tərəqqisi naminə ali dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

# Azərbaycan–Belarus dostluq və tərəfdaşlığı inkişaf edir

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 27-də Belarus Respublikasının Prezidenti Aleksandr Lukaşenkoya zəng edib.**

Dövlətimizin başçısı Aleksandr Lukaşenkonu Belarus Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməsi münasibətilə təbrik edib, fəaliyyətində uğurlar arzulayıb.

Prezident Aleksandr Lukaşenko göstərilən diqqətə və təbrikə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib.

Telefon danışığı əsnasında dövlət başçıları iki ölkə arasında dostluq və tərəfdaşlıq əlaqələrinin bundan sonra da yüksələn xətt üzrə inkişaf edəcəyinə əminliklərini ifadə edərək, əməkdaşlığımızın perspektivləri ətrafında fikir mübadiləsi aparıblar.

***Prezidentin Mətbuat Xidməti***

# Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**4.** Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

# Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**4.** Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

# Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Xarici Kəşfiyyat Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**4.** Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

# Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

1. Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

3. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

4. Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

## Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Müdafiə Nazirliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**4.** Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

## Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Dövlət Təhlükəsizliyi Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**4.** Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

## Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**4.** Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

## Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**4.** Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

## Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin və Tibb Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının və xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Ədliyyə Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**4.** Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

## Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşlarının artırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin xüsusi rütbəsi olan əməkdaşlarının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**4.** Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

## Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**4.** Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

## Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**4.** Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

## Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**4.** Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

## Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşlarının artırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin həqiqi hərbi xidmət hərbi qulluqçularının aylıq vəzifə maaşları orta hesabla 10 faiz artırılsın.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**3.** Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**4.** Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

## Bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin aylıq tarif (vəzifə) maaşlarının artırılması haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, bəzi dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin sosial müdafiəsini gücləndirmək məqsədilə **qərara alıram:**

**1.** Azərbaycan Respublikasının dövlət büdcəsindən maliyyələşən aşağıdakı dövlət orqanlarının dövlət qulluqçusu olmayan mülki işçilərinin (Vahid Tarif Cədvəli əsasında əməkhaqqı alan işçilər istisna olmaqla) aylıq tarif (vəzifə) maaşları orta hesabla 10 faiz artırılsın:

1.1. Azərbaycan Respublikasının Müdafiə Nazirliyi;

1.2. Azərbaycan Respublikasının Daxili İşlər Nazirliyi;

1.3. Azərbaycan Respublikasının Fövqəladə Hallar Nazirliyi;

1.4. Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidməti;

1.5. Azərbaycan Respublikası Daxili İşlər Nazirliyinin Daxili Qoşunların Baş İdarəsi;

1.6. Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Penitensiar xidməti və Tibb baş idarəsi;

1.7. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi;

1.8. Azərbaycan Respublikasının Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidməti;

1.9. Azərbaycan Respublikasının Dövlət Təhlükəsizliyi Xidməti;

1.10. Azərbaycan Respublikasının Xarici Kəşfiyyat Xidməti;

1.11. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti;

1.12. Azərbaycan Respublikası Prezidentinin Təhlükəsizlik Xidməti;

1.13. Azərbaycan Respublikasının Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidməti;

1.14. Azərbaycan Respublikasının Strateji Obyektlərin Mühafizəsi Dövlət Agentliyi.

**2.** Bu Fərmanın 1.1–1.6-cı bəndlərində nəzərdə tutulan dövlət orqanlarının dövlət qulluqçusu olmayan, əməkhaqları Vahid Tarif Cədvəli əsasında tənzimlənən mülki işçilərinin aylıq tarif (vəzifə) maaşları dövlət büdcəsindən maliyyələşdirilən sahələr üçün qüvvədə olan Vahid Tarif Cədvəlinə uyğun məbləğlərdə müəyyən edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**4.** Bu Fərmanın 1.1–1.14-cü bəndlərində nəzərdə tutulan dövlət orqanları və Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Fərmandan irəli gələn məsələlərin həlli üçün zəruri tədbirlər görsünlər.

**5.** Bu Fərman 2025-ci il yanvarın 1-dən tətbiq edilir.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

## "Azərbaycan Respublikasında iqtisadi siyasətin və iqtisadi islahatların yeni idarəetmə çərçivəsinin yaradılması və "Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 iyul tarixli 995 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 9 sentyabr tarixli 1151 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** "Azərbaycan Respublikasında iqtisadi siyasətin və iqtisadi islahatların yeni idarəetmə çərçivəsinin yaradılması və "Azərbaycan Respublikasının Maliyyə Sabitliyi Şurasının yaradılması haqqında" Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 15 iyul tarixli 995 nömrəli Fərmanının ləğv edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 9 sentyabr tarixli 1151 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddə 1141 (Cild I); 2024, № 1, maddə 32) 2-ci hissəsinə "Azərbaycan Respublikası Prezidentinin köməkçisi – İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri" abzasından əvvəl aşağıdakı məzmunda yeni abzas əlavə edilsin:

"Samir Şərifov − Azərbaycan Respublikası Baş nazirinin müavini".

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 27 yanvar 2025-ci il**

# İqtisadi Şuranın iclası



**Yanvarın 27-də İqtisadi Şuranın iclası keçirilib.**

Azərbaycan Respublikası İqtisadi Şurasının sədri, Baş nazir Əli Əsədovun rəhbərliyi ilə keçirilən iclasın gündəliyində Prezident İlham Əliyevin yanvarın 7-də yerli televiziya kanallarına verdiyi geniş müsahibəsindən irəli gələn tapşırıqlar, 2024-cü ilin sosial-iqtisadi inkişaf göstəriciləri və İqtisadi Şuranın 2025-ci il üzrə Fəaliyyət Planı, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nda Azad İqtisadi Zonanın (AİZ) yaradılması ilə bağlı məsələlər, ölkəmizin beynəlxalq maliyyə institutları və fondları ilə əməkdaşlığı, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin 2024-cü il üzrə Fəaliyyət Hesabatı və 2025-ci il üçün Fəaliyyət Planı və digər cari məsələlər ətraflı müzakirə olunub.

Gündəlikdə olan məsələlər üzrə iqtisadiyyat naziri Mikayıl Cabbarovun və İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktoru Vüsal Qasımlının məruzələri dinlənilib. İclasda iştirak edən Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli və Dövlət Gömrük Komitəsinin sədri Şahin Bağırov da Naxçıvan Muxtar Respublikasında AİZ yaradılması ilə bağlı çıxış ediblər.

Təqdim olunan məsələlərə dair İqtisadi Şura üzvləri tərəfindən geniş müzakirələr aparılıb. İclasın yekununda İqtisadi Şura üzvlərinin təklifləri nəzərə alınmaqla qərarlar qəbul olunub və aidiyyəti qurumlara müvafiq tapşırıqlar verilib.

**XQ**

# Azərbaycan–Qətər siyasi məsləhətləşməsi

**Yanvarın 26-da Azərbaycanın xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Qətər Dövlətində səfərdə olub.**



Səfər çərçivəsində Azərbaycanın Xarici İşlər Nazirliyi ilə Qətərin Xarici İşlər Nazirliyi arasında siyasi məsləhətləşmələrin 5-ci iclası keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Yalçın Rəfiyev, Qətər tərəfindən isə xarici işlər üzrə dövlət naziri Sultan bin Saad Al Mureyxi rəhbərlik edib.

Məsləhətləşmələr zamanı ikitərəfli siyasi və iqtisadi məsələlər, BMT, Qoşulmama Hərəkatı və digər beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlıq məsələləri müzakirə edilib. Həmçinin ümumi maraq doğuran bir sıra regional və qlobal məsələlərlə bağlı fikir mübadiləsi aparılıb. Ticarət, sərmayə, kənd təsərrüfatı, turizm, təhsil və digər sahələrdə əməkdaşlıq istiqamətləri müzakirə edilib.

**XQ**

# Təqsirləndirilən şəxslərin bütün hüquq və vəzifələri lazımi qaydada təmin olunub

**Separatçı rejimin nümayəndələrinə psixotrop maddələrin tətbiqinə dair iddialar gülüncdür.**

Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə Ermənistanın baş naziri Nikol Paşinyanın İctimai Televiziyaya müsahibəsi zamanı irəli sürdüyü iddialarla bağlı şərh verərkən belə deyib. Bildirib ki, yanvarın 25-də Ermənistan baş nazirinin İctimai Televiziyaya verdiyi müsahibədə guya regional eskalasiyaya rəvac vermək məqsədilə separatçı rejimin nümayəndələrinə qarşı psixotrop maddələrin tətbiq olunması ilə bağlı səsləndirdiyi iddiaların heç bir əsası yoxdur və tamamilə gülüncdür: "Təqsirləndirilən şəxslərin bütün hüquq və vəzifələri lazımi qaydada təmin olunub və izah edilib, bütün məhkəmə prosesi və ifadələri qeydə alınıb. Azərbaycanda məhbuslara qarşı qəddar rəftarla bağlı iddialar müstəqil şəkildə, o cümlədən Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən araşdırılıb və bu iddiaların yalan olduğu təsbit edilib.

Ermənistan tərəfindən belə bir bəyanatın verilməsinin, bu ölkənin siyasi rəhbərliyinin bir zamanlar Azərbaycana qarşı təcavüz aktı və siyasətini davam etdirmək naminə bütün vasitələrlə açıq şəkildə dəstəklədikləri şəxslərin hazırda müharibə cinayətləri törətməkdə ittiham olunması ilə əlaqədar davam edən məhkəmə prosesi ilə bağlı nə qədər əsəbi olduğunu nümayiş etdirdiyi aydındır.

Üzdə Azərbaycanın ərazi bütövlüyünü tanıdığını iddia edən Ermənistan baş nazirinin ölkəmizin ərazilərində saxladığı qondarma rejimi təbliğ etdiyini və 2 sentyabr 2023-cü il tarixində, nümayəndələrinin Azərbaycan tərəfindən məsuliyyətə cəlb edilməsindən bir neçə həftə əvvəl separatçı xunta rejimini qondarma "müstəqillik" münasibətilə təbrik etdiyini heç kim unutmayıb.

Ermənistanın işğalçı və təcavüzkar ölkə kimi dövlət məsuliyyəti və bir sıra qanunsuz əməlləri danılması mümkün olmayan faktdır. Beləliklə, bu əməllərdə təqsirləndirilən şəxslərin məsuliyyətə cəlb olunması siyasi manipulyasiya ilə xələl gətirilə bilinməyəcək qədər haqq işidir".

**XQ**

# Qəbələ musiqisevərləri "Qış nağılı"na səsləyir




**Fevralın 7-10-da Heydər Əliyev Fondunun təşkilatçılığı, Mədəniyyət Nazirliyinin, Bakı Musiqi Akademiyasının və "Gilan"ın dəstəyi ilə Qəbələdə ilk dəfə "Qış nağılı" Beynəlxalq Musiqi Festivalı keçiriləcək.**

"Qış nağılı" 2009-cu ildən ənənəvi təşkil olunan Qəbələ Beynəlxalq Musiqi Festivalının davamı olaraq sənətsevərləri bir araya gətirəcək. Festivalda Azərbaycanla yanaşı, Almaniya, Böyük Britaniya, İtaliya, Polşa və Rusiyadan dünyaşöhrətli musiqiçilər - ifaçı və dirijorlar, musiqi kollektivləri çıxış edəcəklər.

"Qış nağılı"nda Azərbaycandan – Fərhad Bədəlbəyli, Emil Əfrasiyab, Murad Adıgözəlzadə, Nəzrin Aslanlı, Nigar Cəfərova, Yeganə Axundova, Yusif Eyvazov, musiqi kollektivlərindən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının Simfonik Orkestri, Bakı Kamera Orkestri, Bakı Xoreoqrafiya Akademiyasının şagird və tələbələri, "Qaytağı" instrumental ansamblı, Almaniya və Rusiyanı təmsil edən Aydar Qaynullinin "Eyforiya" ansamblı, Böyük Britaniyadan Dmitri Sitkovetski, İtaliyadan Anastasiya Bartoli, Sergio Vitale, Polşadan "Glassduo" ansamblı çıxış edəcəklər.

Festival günlərində Qəbələnin müxtəlif mədəniyyət ocaqlarında maraqlı proqram təqdim ediləcək, vokal, kamera instrumental musiqi axşamları, balet tamaşaları təşkil olunacaq. Sənətsevərlərə Qara Qarayevin "Yeddi gözəl" baletindən, Niyazinin "Arzu" əsərindən, Üzeyir Hacıbəylinin "Koroğlu" operasından, Antonio Vivaldinin "İlin fəsilləri" silsiləsindən, Cakomo Puççininin "Turandot", Cüzeppe Verdinin "Traviata" operalarından, Pyotr Çaykovskinin "Şelkunçik" baletindən parçalar, eləcə də Edvard Qriq, Frederik Şopen, İohann Sebastyan Bax, Volfqanq Amadey Motsart və digər bəstəkarların müxtəlif musiqi kompozisiyaları təqdim ediləcək.

Tamaşaçılar iTicket.az saytından ödənişsiz qeydiyyatdan keçməklə tədbirə qoşula bilərlər.

**XQ**

# Baş Prokurorluğun illik hesabatı

**Yanvarın 27-də Azərbaycan Respublikasının Baş Prokurorluğunda 2024-cü ildə prokurorluq orqanları tərəfindən bütün fəaliyyət istiqamətləri üzrə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**




Baş prokuror Kamran Əliyev prokurorluğun əsas fəaliyyət istiqamətləri üzrə görülən işlərə və statistik göstəricilərə istinad etməklə hesabat dövründə respublikada kriminogen durumun nəzarətdə saxlanıldığını, daxili işlər, dövlət təhlükəsizliyi və digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkəmizdə ictimai-siyasi sabitliyin qorunduğunu, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi sahəsində zəruri tədbirlərin görüldüyünü qeyd edib. Vurğulanıb ki, 2024-cü ildə ölkə ərazisində 33 min 379 cinayət qeydə alınmaqla onların 87,6 faizinin açılması təmin olunub, ümumilikdə ölkə üzrə cəmi 17 min 155 cinayət işinin istintaqı tamamlanıb ki, bunlardan 1086-sı prokurorluq orqanlarında istintaq edilib.

Cinayət təqibindən kənar icraatlarla əlaqədar inzibati xəta haqqında protokol tərtib etmək səlahiyyətinə malik qurumlarla işgüzar əlaqələrin qurulması təmin olunmaqla yanaşı, prokurorluq orqanları tərəfindən inzibati xəta haqqında işlər üzrə 3 min 561 icraat başlanıb, inzibati xəta haqqında iş üzrə icraatın dayandırılması haqqında digər qurumlar tərəfindən qəbul edilən 122 qərar ləğv edilib.



Bu müddət ərzində prokurorluq orqanları tərəfindən 735, ümumilikdə isə digər istintaq qurumları ilə birgə 13 min 551 cinayət işinin ibtidai istintaqı yekunlaşdırılaraq baxılması üçün məhkəmələrə göndərilib ki, ibtidai istintaqı tamamlanmış cinayət işləri və bəraətverici əsaslar olmadan rədd edilən materiallar üzrə ümumilikdə 913 milyon 744 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək onun 31 faizinin, yəni 283 milyon 411 min manat hissəsinin ödənilməsinə nail olunub.

Prokurorluq orqanlarında ibtidai istintaqı aparılaraq yekunlaşan cinayət işləri üzrə ümumilikdə 170 milyon 958 min manat məbləğində maddi ziyan vurulduğu müəyyən edilərək istintaq tədbirləri ilə onun 44 faizinin, yəni 75 milyon 300 min manat hissəsinin ödənilməsinə nail olunub, habelə 33 milyon manatdan artıq məbləğdə əmlak üzərinə həbs qoyulub.

Xüsusi qeyd edilib ki, "Elektron prokurorluq" informasiya sistemi artıq prokurorluq orqanlarının bütün fəaliyyət sferalarında tətbiq edilir, bununla yanaşı 2024-cü ildə həmin sistem üzərindən həyata keçirilən xidməti fəaliyyətin təkmilləşdirilməsi istiqamətində zəruri işlərin icrası davam etdirilməklə, ümumilikdə, 19 yeni modulun istifadəyə verilməsi və "EPİS"in digər informasiya sistemlərinə inteqrasiyası istiqamətində intensiv işlərin icrası təmin edilib.

Hesabat dövründə Baş Prokurorluğun İstintaq idarəsi tərəfindən 61 şəxs barəsində 27 cinayət işinin ibtidai istintaqı aparılmaqla baxılması üçün məhkəmələrə göndərilib, bunlardan 5 şəxs barəsində 2 iş qəsdən adam öldürmə faktları ilə bağlı olub.

Kollegiya iclasında daxili işlər, dövlət təhlükəsizliyi və ədliyyə orqanları ilə birgə keçirilmiş peşəkar istintaq-əməliyyat tədbirləri ilə ötən illərdən bağlı qalan qeyri-aşkar şəraitdə törədilən 6 qəsdən adam öldürmə cinayətlərinin açılması təmin edilməklə hesabat dövründə onlardan 2-si üzrə təqsirli şəxslərin məhkəmə məsuliyyətinə verildiyi xüsusi vurğulanıb.

Ötən ildə prokurorluq orqanları tərəfindən 1869 apellyasiya və 587 kassasiya protestləri verilib, 843 apellyasiya protesti və 127 kassasiya protestləri təmin olunmaqla nəticədə məhkəmə səhvlərinin aradan qaldırılması təmin olunub.

2024-cü ildə istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarətin səmərəliliyinin artırılması məqsədilə prosessual rəhbərlik və effektiv nəzarətin həyata keçirilməsini təmin edəcək mexanizmin təkmilləşdirilməsi üçün zəruri tədbirlər görülməklə cinayət işləri üzrə icraata xitam verilməsinə dair 894 qərar əsassız və qanunsuz hesab edilərək ləğv olunub, habelə ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorlar tərəfindən 255 halda ittiham aktları təsdiq edilməyərək cinayət işləri əlavə istintaq aparılması üçün qaytarılıb.

Qeyd edilib ki, Baş Prokurorluğun "961 Çağrı Mərkəzi"nə 2024-cü ildə daxil olan müraciətlərdən 29 min 747 müraciət üzrə vətəndaşlara onları maraqlandıran müvafiq hüquqi izahlar verilib, 4 min 426 məlumat isə cinayət xarakterli olduğu üçün qeydə alınaraq araşdırılması aidiyyəti struktur qurumlara tapşırılıb və həmin məlumatlar üzrə cinayət işləri başlanıb, habelə müvafiq prokuror təsir aktları qəbul edilməklə zəruri tədbirlər görülüb.

Kollegiya iclasında bildirilib ki, ötən ildə xidməti, icra və əmək intizamının daha da möhkəmləndirilməsi, fəaliyyətlərində qanunsuzluq hallarına və prokurorluq işçisinə yaraşmayan hərəkətlərə yol verən işçilərə münasibətdə tələbkarlıq artırılıb, aparılan xidməti yoxlamalar nəticəsində müxtəlif xətalar törətdiklərinə görə 19 prokurorluq əməkdaşı intizam məsuliyyətinə cəlb edilib. Onlardan 11-nə töhmət və ya şiddətli töhmət elan edilib, 7 nəfər vəzifədən azad olunub, bir nəfər rütbədən məhrum edilməklə prokurorluq orqanlarından xaric edilib.

Hesabat dövründə prokurorluq orqanlarının beynəlxalq nüfuzunun artırılması istiqamətində xarici ölkələrin müvafiq orqanları və beynəlxalq təşkilatlarla əlaqələr genişlənib, Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin həyata keçirdiyi tədbirlərlə 51 nəfər təqsirləndirilən şəxsin ölkə xaricindən ekstradisiyası təmin edilib.

Daha sonra Azərbaycan Respublikası Baş prokurorunun birinci müavini Elçin Məmmədov, müavinləri Elmar Camalov və Heydər Məmmədov hesabat dövründə fəaliyyət, bu zaman yol verilmiş nöqsanlar və onların aradan qaldırılması istiqamətində görülməli tədbirlər barədə, Samux, Ağcabədi və Şuşa rayon prokurorları hesabat dövründə görülmüş işlərlə bağlı, Kadrlar idarəsinin rəisi Natiq Hüseynov isə "Prokurorluq orqanlarında qulluq keçmə haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq icrası həvalə olunan vəzifələrə təyinatlara razılıq verilməsi ilə bağlı məruzələrlə çıxış edib, məruzələr ətrafında fikir mübadiləsi aparılmaqla, qarşıda duran vəzifələrə dair tapşırıqlar verilib.

Baş prokuror cari ildə prokurorluq orqanları əməkdaşlarının qarşıda duran vəzifələrin icrasında öz bilik və peşə bacarıqlarını bütünlüklə səfərbər edəcəklərinə əminliyini ifadə edib.

**XQ**

# “Erməni soyqırımı”: artist Paşinyan və Aznavurun “xəyanət”i



**(əvvəli 1-ci səhifədə)**

Paşinyan ötən il, eyni zamanda, erməni dilindən “böyük qırğın” kimi tərcümə olunan “mets egern” ifadəsini işlətmişdi. Xatırladaq ki, bu ifadəni, əsasən, “erməni soyqırımı”nı tanımayan ölkələr öz mesajlarında istifadə edirlər. Nikolun fikrincə, “mets egern” ermənilər üçün milli faciə və travmaya, sosial psixologiyanı müəyyənləşdirən amilə çevrilib: “Bu gün də biz dünyanı, ətrafımızı, özümüzü “mets egern” travmasının təsiri altında qavrayırıq və bunun öhdəsindən gələ bilmirik. Bu, o deməkdir ki, beynəlxalq səviyyədə tanınan dövlət olaraq, tez-tez digər ölkələr və beynəlxalq ictimaiyyətlə travma vəziyyətində davranırıq, onlarla rəqabət aparırıq və nəticədə bəzən reallıqlarla faktorları, tarixi prosesləri və proqnozlaşdırılan üfüqləri düzgün ayıra bilmirik”.

Qeyd edək ki, Paşinyan İsveçrədə də demək olar, əvvəlki tezisləri təkrarlayıb. “Biz erməni “soyqırımı”nın tarixinə qayıtmalıyıq. Nəyin baş verdiyini və niyə baş verdiyini anlamalıyıq. Biz bunu necə, kimin köməyi ilə dərk etdik? 1939-cu ildə “soyqırımı” gündəliyi yox idi, amma artıq 1950-ci ildə o, gündəliyə daxil oldu”, – deyən baş nazirin daha əvvəl “erməni soyqırımı” məsələsinin sovet dövründə süni şəkildə kəskinləşdirildiyini vurğulayan fikirləri də var. Paşinyanın sözlərindən belə çıxır ki, Türkiyə NATO-ya üzv olduğu üçün SSRİ ermənilərin alyansdakı qonşu ölkə ilə kəskin şəraitdə qalmasını istəyib. Məlumdur ki, Türkiyə 1952-ci ildə NATO-ya üzv olub. Paşinyanın da 50-ci illəri yada salması bununla bağlıdır.

***

Əlqərəz, hazırda N.Paşinyana İsveçrədə dediklərinə görə ittiham yağdıranlardan biri Rusiya Erməniləri İttifaqıdır. İttifaq bəyanat yayaraq bildirib ki, Nikolun söylədikləri Ermənistan konstitusiyasına və cinayət məcəlləsinə, eləcə də İsveçrə qanunlarına ziddir, tarixi faktları təhrif edir və rəsmi İrəvanın bədxah siyasətinin növbəti təzahürüdür. Sənəddə, eyni zamanda, vurğulanıb ki, Paşinyan İsveçrəni türk hekayələrini təbliğ etmək üçün platforma qismində seçdi və bununla Holokost kimi “erməni soyqırımı”nın inkarının cinayət hesab olunduğu dövlətə nifrətini göstərdi.

N.Paşinyanın İsveçrədə dediklərinə sərt münasibət açıqlayanlardan biri də “Ayakve” adlanan, əslində terrorçuluğa xidmət edən vətəndaş birliyidir. Qurumun həmtəsisçisi Avetik Çələbyan bildirib ki, təmsil olunduğu təşkilat 2023-cü ilin mayında iki əsas məqamı özündə birləşdirən qanun layihəsini ictimai müzakirəyə çıxarıb. Bunlardan birincisi, Qarabağın başqa dövlətin tərkib hissəsi kimi tanınmasına, ikincisi isə “erməni soyqırımı”nın beynəlxalq səviyyədə tanınmasından imtinaya görə cinayət məsuliyyətini nəzərdə tutur. “Biz aydın şəkildə başa düşdük ki, bu iki məsələ bir-biri ilə sıx bağlıdır. Mövcud rejim (Paşinyan iqtidarı – red.) Türkiyənin bölgədəki maraqlarına itaətkarcasına xidmət etdiyi üçün hər iki məsələdə Türkiyə gündəmini irəli aparmağa çalışacaq. İndi il yarımdan sonra o (Paşinyan - red), bunu ilkin olaraq guya Rusiyanın təsirindən qurtulmaq, əslində Ankara qarşısında siyasi öhdəliklərini yerinə yetirmək üçün etdiyini artıq gizlətmir. Öhdəlik təkcə “erməni soyqırımı”nın beynəlxalq aləmdə tanınmasından imtina deyil, həm də bu faktı şübhə altına almaq, günahı soyqırımı qurbanlarının üzərinə atmaqdır. Biz bu dəhşətli proqrama müqavimət göstərməliyik. Nə qədər insanları aldatmağa, şüurunu boğmağa çalışsan da, bacarmayacaqsan, zəhərin sənin özünü zəhərləyəcək”, – deyən Çələbyanın, belə demək mümkünsə, hiddət qusduğu aydındır.

Sonda onu da bildirək ki, erməni cəmiyyəti köhnə ampluasındadır. Saxta “soyqırımı” ətrafında baş nazir Nikol Paşinyana qarşı qaldırılmış qəzəb ritorikası bunu yenidən sübuta yetirməkdədir. Ancaq belə bir durumun formalaşmasının günahkarı elə rəsmi İrəvanın özüdür. Çünki Paşinyan və tərəfdarları saxta soyqırımı məsələsini gündəmdə saxlayırlar. Ancaq bir qədər fərqli formada. Fikrimizin sübutu kimi, Ermənistanın paytaxtında keçirilmiş bir toplantıya diqqət yetirək.

Qondarma “erməni soyqırımı”nın tanınması məsələsinin ölkənin beynəlxalq siyasət prioritetlərindən çıxarıldığını bəyan etmiş Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan ötən il rəhbərlik etdiyi qurumun xətti ilə “Soyqırım və digər cinayətlərə qarşı erkən xəbərdarlıq və erkən reaksiya üçün beynəlxalq mexanizmlərin effektivliyinin gücləndirilməsi” mövzusunda “Soyqırım Cinayətinə Qarşı” V Qlobal Forumun təşkilinə nail olmuşdu. Dünyanın stajlı ermənipərəst qaragüruhunun toplaşdığı tədbirdə Azərbaycan və Türkiyə əleyhinə açıq və qapalı ittihamlar səslənmişdi.

Deməli, Nikol və tərəfdarları “soyqırımı” mövzusunu tamam fərqli müstəviyə daşımağa, daha doğrusu, onu Rusiyanın egidasından çıxarmağa çalışırlar. Onlar yaramaz iddiadan tamamilə imtinanı ağıllarından belə keçirmirlər. Əvvəldə haqqında söz açdığımız səmimiyyətsizlik də elə budur. Deməli, 2018-ci ildə dünyasını dəyişmiş Ş.Aznavurun, belə demək mümkünsə, soyqırımı tüpürcəyindən bir lopa da Paşinyanın və komandasındakıların sifətindədir. İmkan varsa, üzlərini silsinlər.

***Ə.RÜSTƏMOV***
***XQ***

# İrəvan yenə odla oynayır

**(əvvəli 1-ci səhifədə)**

Görünən odur ki, maraqlı qüvvələr Paşinyanı ritorika mübarizəsinə sürükləməyə çalışır. Əlbəttə ki, bu “taktika”dan yararlananların niyyəti opponentlərdə qıcıq yaratmaq, regionu əsəblərin tarıma çəkildiyi gərginlik girdabına sürükləməkdir. Hayların liderinin sözlərinə görə, Ermənistan hökumətinin “strategiyası” eskalasiyanın qarşısını almaq və hər şeyə məntiqlə cavab verməkdir. Nikol Paşinyan yerli auditoriyanın gözündə özünə bəraət qazandırmaq üçün deyir ki, 2024-cü ildə bölgədə vəziyyət ən sakit dövrünü yaşayıb. Guya, bunun özü də onun bəyan etdiyi strategiya ilə bağlıdır.

* * *

Bəs, Ermənistan baş naziri müsahibəsində nə üçün sərhəddə yeni eskalasiya risklərini özündə saxlayan addımlarından söz açmadı? Niyə Avropa İttifaqı (Aİ) missiyasının qalma müddətini uzatmağın bölgədə gərginliyin saxlanmasına hesablanmış diplomatik oyun olduğunu dilə gətirmədi? Axı, o, özü də gözəl bilir ki, dünən Brüsseldə qəbul edilən qərar “binokllu diplomatların”, fransız və alman kəşfiyyatçılarının Ermənistanın Azərbaycandan savayı, Rusiya, İran və Türkiyə ilə sərhədində pozuculuq fəaliyyətinə “yaşıl işıq” yandırmağa, regionu qarışdırma poliqonuna çevirməyə hesablanıb.

Xəbər verdiyimiz kimi, 2025-ci il yanvarın 10-da Aİ-nin xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali nümayəndəsi Kaya Kallasın mətbuat xidməti Brüsselin qurumun Ermənistandakı mülki monitorinq missiyasının mandatını uzatmaq niyyətində olduğunu açıqlayıb. Dünən Brüsseldə kəşfiyyat missiyasının mandatının daha 2 il müddətinə uzadılması barədə qərarın veriləcəyi gözlənilirdi. Əslində, bununla bağlı prinsipial qərar qəbul edilib. Amma məsələ bununla bitmir. Məsələ ondadır ki, Brüsseldə bu missiyanın təkcə kəşfiyyat funksiyasının qənaətbəxş olmadığı qənaəti ilə ona “hərbi funksionallığın” əlavə edilməsi qərarına gəliblər. Yəni, missiyanın mandatının müddətinin uzadılması yalnız kəşfiyyat xarakterli olmayıb, tamhüquqlu hərbi nümayəndəlik statusunu da nəzərdə tutur. Bu zaman onun kəşfiyyat infrastrukturunun yeniləndəcəyi, müvafiq avadanlıqlar, xüsusi texnika, o cümlədən hərbi nəqliyyat vasitələri ilə təmin ediləcəyi düşünülür. Beləliklə, İrəvan Aİ missiyasını nəinki öz ərazisindən çıxarmağa hazırlaşmır, tam əksinə, onun qalma müddətinin daha iki il uzadılmasına, hərbi bazaya çevrilməsinə razılıq verib. Bu da sülhün təxirə salınması, Ermənistanın odla oynaması anlamına gəlir.

**Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov mövzu ilə bağlı XQ-yə açıqlamasında bildirdi ki,** Avropa İttifaqının missiyası şərti sərhədin o



üzündə kəşfiyyat işləri ilə məşğuldur: “İndi bu mülki missiyanın Ermənistanda qalma müddətini uzatmaqla kifayətlənməyib, üstəlik, onlara şəxsi silah gəzdirmək hüququ da verəcəklər. Sabah qorxudan, şübhədən, hansısa səbəbdən həmin silahdan istifadə etsələr, necə olacaq? Bəlkə bununla şərti sərhəddə təxribat törətmək üçün “münbit zəmin” yaratmağa çalışırlar? Yersiz hərəkətlərdir, sonda öz başları ağrıyacaq. Belə yanaşma nə Ermənistanın, nə bölgənin xeyrinədir, nə də bölgədə əməkdaşlığa töhfə verə biləcək siyasətdir. Güman etmirik ki, Aİ-nin yeni qərarı ilə Ermənistan özünü arxalı hiss eləsin. Yəni, bunun sayəsində başını qaldırıb Azərbaycana nəsə edə bilsin. Avropanın kəşfiyyatçı missiyası, onun ermənilərə yardımları İrəvanın Bakıya qarşı revanş fikrinə düşməsinə əsas verə bilməz. Haylar bunu yalnız yuxularında görə bilərlər. İntəhası, bu yöndə hərəkət etmələri üçün nə bu gün, nə də sabah imkanları olacaq. Hesab edirəm ki, onların belə bir şansı heç zaman olmayacaq.

Azərbaycan ağır məğlubiyyətdən sonra hələ də ağlı başına gəlməmiş qonşusundan dəfələrlə güclüdür və bütün qoşun növlərinin daha da gücləndirilməsi istiqamətində fəaliyyətini davam etdirir. Bu baxımdan Azərbaycan xalqı arxayın olmalıdır. Onun təhlükəsizliyi dövlət tərəfindən möhkəm və etibarlı şəkildə təmin olunub. Ermənistanın və “kollektiv Qərb”in son davranışlarına gəldikdə isə onlar son nəticədə heç nəyə nail ola bilməyəcəklər”.

* * *

İki ölkənin sərhədində eskalasiya ab-havasının başqa bir əlaməti: Britaniya hökuməti Ermənistan və Azərbaycan arasında davam edən gərginliyə görə öz vətəndaşlarını sərhədyanı ərazilərə səfərdən çəkinməyə çağırıb. Krallığın bu barədə hesabatında Ermənistan–Azərbaycan sərhədinin bağlı qaldığı, sərhədin şərqindəki 5 kilometr məsafədə hər hansı səyahətdən çəkinmək tövsiyə olunur. Aydındır ki, belə bir müraciət Britaniya xüsusi xidmət orqanlarının tövsiyəsi zəminində ortaya çıxıb. Hərçənd Ermənistan xarici kəşfiyyat xidməti 2025-ci ildə Ermənistanla Azərbaycan arasında genişmiqyaslı müharibə ehtimalının yüksək olmadığını açıqlayıb. Müxtəlif faktlara, məlumatlara, hadisələrin təhlilinə əsaslanaraq bu qənaətə gəlinib. İndi belə bir suala cavab arayaq: baş verənlərin fonunda Ermənistanın yenidən odla oynamağa başlaması bölgədə nəyə, yaxud nələrə səbəb ola bilər? Bu halda sülh müqaviləsinin imzalanması daha neçə il yubanacaq? Bunlardan heç də geri qalmayan digər məntiqi sual: doğrudanmı, Paşinyan qarşıdakı seçkilərdə qalib gələnə qədər sülh sazişinin imzalanmasını yubatmağa çalışır? Əgər belədirsə, o, sülhə mane olan kənar qüvvələrdən danışmasın.

Şübhə doğurmayan yeganə fakt budur ki, əldə edilən bütün uğurlar ikitərəfli danışıqlara aiddir. Yəni, kənar aktorlar, keçmiş həmsədr ölkələr sülh dialoquna müdaxilə etməyəndə nəticə əldə etmək mümkündür. Təki mane olmasınlar, özümüz təkbətək danışmağı bacarırırq. Onlar “münaqişənin dinc yolla həllinə çalışdıqları” bütün mərhələlərdə proses dalana dirənib. Daha doğrusu, dirəndirilib. Ona görə indi tərəflərin əsas prinsipi “vasitəçiləri” ikitərəfli danışıqlar platformasına yaxın buraxmamaq olmalıdır. Hətta yekun sülh sənədinin imzalanması 2026-cı ildən sonraya qalsa belə. Çünki Paşinyan növbədənkənar seçkilər keçirmək barədə düşünür. O, məhz bu yolla hakimiyyəti üçün yarana biləcək təhlükəni adlamağı və sonra sülh danışıqlarında daha rahat iştirak edə biləcəyini hesablayıb.

Bəzi skeptiklər belə hesab edirlər ki, tərəflərin sülh sazişində razılaşmadan tədricən uzaqlaşdığı müşahidə edildiyi indiki məqamda sərhədin yeni sahələrində delimitasiyası ilə bağlı razılığa gəlmələri maraq doğurur. Onların fikrincə, Ermənistan bu razılaşma ilə şimaldan cənuba qədər uzanan sərhədin delimitasiyasında Qazax–Tavuş istiqamətinin müəyyən edilməsində tətbiq edilən prinsipin (Almatı Bəyannaməsi əsasında – red.) əsas götürülməsinə çalışır. İrəvan bununla SSRİ dövründə ermənilərə bağışlanan ərazilər üzərində legitimlik qazanmağa, eləcə də Azərbaycan Ordusunun strateji yüksəkliklərdən geri çəkilməsinə nail ola biləcəyinə ümid edirlər (2022-ci ilin sentyabr döyüşlərində ordumuzun İstisu (Cermuk) istiqamətində nəzarətə götürdüyü yüksəkliklər nəzərdə tutulur – red.). Əlbəttə, bu hayların xəyalı, heç vaxt çin olmayacaq arzusudur.

* * *

Məgər Ermənistan rəhbərliyi ətrafında cərəyan edən hadisələrə – Ukrayna–Rusiya müharibəsinə, İsrail–Fələstin münaqişəsinə, Suriyada, İraqda, eləcə də digər yerlərdə tökülən qanlara açıq gözlə baxmağı bacarmır? İrəvan külə çevrilməkdə olan münaqişə ocağını yenidən körükləməklə nəyəsə nail olacağına ümid edir? Bəs, bu məkrli planın reallaşması üçün milyonlarla vəsait xərcləyənlərin, işğalçı tərəfə hərbi yardım göstərənlərin məqsədləri nədən ibarətdir? Hər halda bu zaman onlar Ermənistanın qonşuları ilə normal münasibət quraraq rahat yaşaması, hayların xoşbəxt gələcəyi barədə düşünmürlər. İrəvanın okeanın o tayındakı “strateji tərəfdaşına” bəslədiyi ümidləri də sabun köpüyünə dönməkdədir. Ermənistan hakimiyyəti irəli-geriyə baxmadan hakimiyyətdən gedən Ağ ev Administrasiyasının qucağına sıçramaqla, arxadakı bütün körpüləri, faktiki olaraq, yandırmaqla hansı risklərlə üz-üzə qalacağına əhəmiyyət belə verməmişdi. Fəqət ABŞ-ın respublikaçı yeni prezidenti demokratlar tərəfindən qurulan bütün dəyərlər sistemini sıfırlamağa başladı. Bu ölkədəki erməni diasporuna güvənən Ermənistan rəhbərliyi indi respublikaçılarla “isti münasibətləri” bərpa etmək məcburiyyəti ilə üzləşiblər. Amma bu zaman onların üzləşəcəyi əsas sual bu olacaq: Donald Trampın komandası bunu istəyəcəkmi? Axı, ikinci dəfə hakimiyyətə gələn həmin komanda 4 il əvvəl kimin ondan üz döndərdiyini, kimin isə onu dəstəklədiyini yaxşı xatırlayır. Ən maraqlısı odur ki, bu vəziyyət yenidən təkrarlana bilər. Amma bu dəfə “saat əqrəbinin əksi istiqamətində”.

“Kollektiv Qərb”in son davranışları Rusiyaya qarşı təzyiqləri artırmaqdan xəbər verir. Bu zaman, o, son 200 ildə Rusiyanın sateliti müttəfiqi və forpostu olan, məhz bu səbəbdən hələ də KTMT-dən və Avrasiya İqtisadi İttifaqından çıxmağa tələsməyən Ermənistanı öz orbitindən qoparmaq məqsədini daşıyır. Aydın məsələdir ki, Qərb bu addımları ilə Qafqazda Rusiyaya qarşı ikinci cəbhəni açmaq niyyətindədir. Azərbaycan isə bu çoxkombinasiyalı çirkin oyunların iştirakçısı olmaq fikrində deyil. Çünki o, müstəqil, çoxspektrli xarici siyasətini həyata keçirir. Bu zaman istər region dövlətləri, istərsə də hegemonluq iddiasında olan “böyük güclər”lə bərabərhüquqlu tərəf kimi eyni səviyyədə durmağa, onlarla eyni tonda danışmağa qərarlıdır. Məlum təyyarə qəzası Bakının bu siyasi iradəyə sahib olmasını bir daha isbatladı.

Əgər Ermənistan “böyüklərin” bu qlobal oyununda yenə alətə çevrilmək, “qurbanlıq keçi” olmaq istəyirsə, ilgəyi boynuna öz əlləri ilə keçirsin. Amma bundan əvvəl bu miskin aqibəti onun boyuna biçməyə çalışanların son 100 ildəki tarixlərinə diqqətlə baxsın.

***İmran BƏDİRXANLI***
***XQ***

Köşə

# Ermənilərin himayədarlarına xatırlatma

## *Yanvarın 28-də Azərbaycan mülki helikopterinin vurulmasından 33 il keçir*

**Moskva da daxil olmaqla, dünyanın hər yerində, hamı yaxşı bilir ki, 1992-ci il yanvarın 28-də Ağdamdan Şuşaya uçan “Mİ-8” mülki helikopter Xankəndidəki rus silahlıları tərəfindən vurulmuşdu. O zaman Cənubi Qafqazdakı xaos və anarxiyadan, xüsusən, Azərbaycandakı başıpozuqluqlardan sui-istifadə edən ruslar istədikləri addımı atır və günahı gah ermənilərin, gah da azərbaycanlıların üstünə yıxırdılar. Nə ermənilər həmin haqsızlıqlara etiraz edə bilirdi, nə də biz.**



**İttifaq MİRZƏBƏYLİ**
**i-mirzebeyli@mail.ru**

Fakt ondan ibarətdir ki, həmin gün o dövr üçün müasir hesab olunan rus qumbaraatanı ilə vurulmuş mülki helikopterdəki 44 nəfərin hamısı həlak olmuşdu. Görəsən ermənilər indi – aradan 33 il keçəndən sonra, üstəlik, İrəvan– Moskva münasibətlərinin guya soyuduğu bir dönəmdə (şəxsən mən buna qətiyyən inanmıram) həmin faciənin günahkarlarının kim olduğunu deyəcəklərmi? Deməyəcəklər. Çünki Ermənistanda hamı yaxşı bilir ki, bu yarımvəhşi qəbilənin yeganə himayədarı Rusiyadır. Onlar məhz Rusiyanın əli ilə qədim türk torpaqlarında dövlət qurublar və son iki əsrdəki mövcudluqlarına görə Moskvaya minnətdar olduqlarını gizlədə bilmirlər. Avropanın da, Amerikanın da, İranın da, Hindistanın da Ermənistanda çıxartdığı hoqqaların heç birinin bu işğalçı dövlət üçün üç qara qəpiklik xeyri yoxdur.

Xatırladaq ki, həmin terror hadisəsi Şuşanın Xəlfəli kəndi yaxınlığında baş vermişdi. Hadisə nəticəsində əksəriyyəti qadın və uşaqlardan ibarət 41 sərnişin və 3 ekipaj üzvü, ümumilikdə 44 nəfər həlak olmuşdu. Ancaq xatırladılmalı digər fakt da var. Belə ki, həmin faciədən iki ay əvvəl – 1991-ci il noyabrın 20-də də ermənilərin Xocavənd rayonunun Qarakənd kəndi yaxınlığında “Mİ-8” helikopterini atəşə tutması nəticəsində Azərbaycanın bir çox dövlət xadimləri və jurnalistləri həlak olmuşdular. Onların arasında dövlət katibi Tofiq İsmayılov, baş prokuror İsmət Qayıbov, dövlət müşaviri, sabiq daxili işlər naziri Məhəmməd Əsədov, millət vəkilləri Vaqif Cəfərov, Vəli Məmmədov, baş nazirin müavini Zülfü Hacıyev, Prezident Aparatının şöbə müdiri, jurnalist Osman Mirzəyev, Qazaxıstan daxili işlər nazirinin müavini Sanlal Serikov, Azərbaycan Dövlət Televiziyasının jurnalisti Alı Mustafayev də var idi. Ümumilikdə, qəza nəticəsində 22 nəfər həlak olmuşdu.

Təbii ki, həmin faciələr zamanı həm ermənilər özləri haqqında yaratdıqları miflərə “qol-qanad vermək” üçün “türklərə qarşı istənilən addımı biz atırıq” – deyirdilər, həm də Azərbaycan dövlətinin gücsüz, lidersiz və zəif olduğuna görə biz nəyisə sübut edə bilmirdik. Amma indi zaman başqadır. AZAL-ın Bakıdan Qroznıya uçan sərnişin təyyarəsinin Rusiya hərbçiləri tərəfindən vurulması gün kimi aydındır. Üstəlik, Rusiya aviasiya dispetçerlərinin üç-dörd mülki hava limanının heç birinə qəbul etmədiyi AZAL təyyarəsi Aktau yaxınlığında yerə düşmüşdü. Bu isə bizə imkan verdi ki, qardaş Qazaxıstanın müvafiq dövlət qurumlarının köməyi ilə faciənin tam təfərrüratları barədə dəqiq məlumat əldə edə bilək.

Müvafiq beynəlxalq sənədlərə əsasən, aviaqəzaların nəticələri bir aydan sonra elan edilir. Bu müddətdən istifadə edən Rusiya “mütəxəssisləri” öz ölkələrinin mətbuatı vasitəsi ilə Azərbaycana qarşı qarayaxma kampaniyası aparırlar ki, biz öz haqlı tələblərimizdən geri çəkilək. Ancaq unudurlar ki, Azərbaycan artıq 90-cı illərin Azərbaycanı deyil. Yəni kiminsə təhdidləri qarşısında geri çəkildiyimiz illər çox geridə qalıb. Yeri gəlmişkən, Rusiyadakı həmkarlarımız “Azərbaycanın tələbləri” deyəndə nəyi nəzərdə tuturlarsa, məlum deyil. Axı Azərbaycan Prezidenti həmin fakt barədə bizim şərtlərimizi açıq şəkildə bəyan etmişdir. Dövlət başçımız qəzadan üç gün sonra – dekabrın 28-də Rusiya Prezidenti Vladimir Putinlə telefon danışığı zamanı bildirmişdir ki, “Azərbaycan Hava Yolları”na məxsus sərnişin təyyarəsi Rusiyasının hava məkanında olan zaman kənar fiziki-texniki müdaxiləyə məruz qalmış, idarəetməsini tam itirdikdən sonra Qazaxıstanın Aktau şəhərinə doğru yönləndirilmiş və yalnız pilotların şücaəti, peşəkarlığı sayəsində qəza enişi edə bilmişdir. Ən başlıcası isə, dövlət başçısı təyyarənin gövdəsində çoxsaylı deliklərin olmasının, hələ havada olarkən sərnişin və heyət üzvlərinin təyyarənin göyərtəsini dəlib içəri daxil olan yad hissəciklərlə yaralanmasının və bu hadisədə sağ qalan təyyarə bələdçiləri və sərnişinlərin ifadələrinin kənar fiziki-texniki müdaxilə faktını təsbit etdiyini vurğulamışdır.

Bütün bunlar dünya ictimaiyyətinin gözünün qabağında olduğu halda, Rusiya “mütəxəssislərinin” qəza barədə məzmunsuz nağıllar uydurması nə qonşuluq münasibətlərinə uyğundur, nə də strateji müttəfiqlik prinsiplərinə. Rusiyalı dostlarımız unudurlar ki, onların hərbçilərinin etdiyi səhvi Azərbaycan hərbçiləri etmiş olsaydı, rəsmi Bakı heç nəyi gizlətməz, fakta həmişəki kimi mərdi-mərdanə münasibət bildirərdi. Biz həmin münasibəti dost və tərəfdaşlarımızdan da gözləyirik. Buna yüksək səviyyədə haqqımız var.

# Azərbaycanda sosial və humanitar elmlərin perspektivləri

## *AMEA-nın 2024-cü il fəaliyyəti kontekstində*



I MƏQALƏ

### Elmi yeniləşmə fəlsəfəsi

Azərbaycan KİV-də zaman-zaman Azərbaycan Milli Elmlər Akademiyasının yeniləşmə kursu ilə bağlı müxtəlif aspektlərdə təhlillər verilir. Bunun iki başlıca səbəbi mövcuddur.

Birincisi, AMEA hələ də yeganə elmi təşkilatdır ki, 2022-ci ilin payızından sistemli və davamlı şəkildə mühüm dövlət qurumu kimi özünün yeniləşməsinin elmi əsaslı konsepsiyasını hazırlamış və onu inklüziv reallaşdırmaqdadır. Bu təşəbbüs AMEA-nın prezidentindən gəlmişdir və akademik İsa Həbibbəyli şəxsi nümunəsi ilə qarşıya qoyulan vəzifələrin öhdəsindən hansı fəallıq, məsuliyyət, möhkəm elmi əsaslı üsulla gəlməyin zəruriliyini bütün kollektivə göstərməkdədir. Yəni yeniləşmə adi hadisə deyildir – Azərbaycan dövlətçiliyi üçün çox əhəmiyyətli olan bir dönəmdə AMEA rəhbərliyinin bir dövlətçi və elmi mövqe seçimidir. Təşkilatın kollektivi bu seçimə böyük önəm verməkdədir.

İkincisi, XXI əsrin üçüncü onilliyində ölkənin baş elmi təşkilatının təşəbbüskar olaraq dövlətçiliyi öndə tutmaqla özünü yeniləşdirməyə sistemli və əsaslı yanaşması bir tərəfdən, Prezident İlham Əliyevin müəyyən etdiyi ölkənin strateji inkişaf kursuna AMEA-nın tam sadiqliyinin təsdiqidir, digər tərəfdən isə bu "sadiqlik" emosional bağlılıqla məhdudlaşmır – daha çox alim fəaliyyətini fədakarcasına həmişə dövlətçiliyə xidmət istiqamətinə yönəltməyin rəmzidir. AMEA-nın bu seçimini akademik İsa Həbibbəyli yığcam tezislə belə ifadə etmişdir: "Biz seçdiyimiz yoldan heç zaman dönməyəcəyik"!

Vurğuladığımız tezislərin fonunda AMEA-nın 2024-cü ildəki fəaliyyətinin hesabatlılığı və qarşıdakı vəzifələrin yerinə yetirilməsi əzmini təhlil etmək aktual görünür. O cümlədən, "Azərbaycanda sosial və humanitar elmlərin perspektivləri necə görünür?" sualına təşkilatın fəaliyyətinin konkret istiqamətləri kontekstində cavab axtarışları idarəetmə, siyasi, elmi və təhsil dairələri üçün maraqlı ola bilər.

Lakin burada, ümumiyyətlə, elmin mahiyyəti (təbiəti) ilə bağlı bir mühüm özəllik vardır. Geniş anlamda elmdən danışanda mütləq problemə geniş baxış lazımdır, çünki heç zaman təcrid olunmuş elmi yanaşma və ya qiymətləndirmə olmur. Ölkə miqyasında belə aparılan təhlillər və gələnən qənaətlərin dünya səviyyəsi ilə müqayisəsi vacibdir. Biz məsələyə bu aspektdə yanaşırıq. Həmin səbəbdən AMEA-nın yeniləşmə kursunun bir sıra mühüm məqamları üzərində bir daha qısa dayanmağa ehtiyac görürük.

### 7 prioritetin ortaq fəlsəfəsi

2024-cü il fevralın 29-da Rəyasət Heyətinin ümumi yığıncağında AMEA prezidentinin elan etdiyi 7 prioritet istiqamət aşağıdakıları əhatə edir: 1) azərbaycançılıq; 2) türk dünyası üzrə tədqiqatların miqyasının genişləndirilməsi; 3) rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik; 4) geniş mənada dünya elminə inteqrasiya; 5) "Gənc Akademiya" layihəsinin həyata keçirilməsi; 6) Azərbaycan elmində, o cümlədən, akademiyada doktorantura təhsili; 7) AMEA-da mövcud idarəetmə strukturlarının yeniləşdirilməsi.

Bu istiqamətlər yeni tarixi mərhələnin əsas özəlliklərini nəzərə almaqla 4 fəaliyyət aspektini ehtiva edir.

Birincisi, tədqiqat istiqamətləri. Bu, konkret prioritet istiqamət olaraq tədqiqata üç aspektin vəhdətində yeniləşmə ruhunda yanaşmağa imkan verir. Onlar elmi yaradıcılıq və vətəndaş mövqeyinin qarşılıqlı münasibətlərini (azərbaycançılıq), yaradıcılıqda kollektiv yaradıcı komandanın yaradılması əsasında ən yeni aktual elmi mövzuların tədqiqini (rəqəmsallaşma, süni intellekt və kibertəhlükəsizlik) və elmi fəaliyyətin təşkilatda struktur-funksional islahatların aparılması fonunda yeniləşməsini (AMEA-da mövcud idarəetmə strukturlarının yeniləşdirilməsi) əhatə edirlər.

İkincisi, son məqsədi bütövlükdə dünya elminə inteqrasiyanı nail olmaqla ayrıca türk dünyasının elmi mühiti ilə əlaqələri maksimum inkişaf etdirmək. Bu yolun seçilməsi ciddi tarixi, mənəvi, mədəni, elmi və dövlət quruculuğu kontekstinə malikdir. Onun tədqiqi ayrıca aparılmalıdır.

Üçüncüsü, elmi fəaliyyət enerjisini yeniləşmək və onu daha potensiallı və müasir mahiyyətli müstəviyə dinamik gətirmək üçün gənclərin elmə cəlb edilməsinə yeni stimul vermək. Bunun üçün AMEA rəhbərliyi "Gənc Akademiya" layihəsini müəyyən etmişdir.

Dördüncüsü, elmlə təhsilin inteqrasiyasına müasir uğurlu doktorantura modellərinin Azərbaycan şəraitinə uyğunlaşdırılması əsasında nail olmaq. Yeri gəlmişkən, bu strateji xarakterli mühüm istiqamətlə bağlı artıq AMEA Rəyasət Heyəti Aparatının "Elm və təhsil" şöbəsi çox ciddi təşəbbüslər göstərir, maraqlı araşdırmalar aparır, dünya üzrə nümunələrə baxır və diqqətə layiq təkliflər verir.

İndi vurğuladığımız məqamlara AMEA-nın ictimai bölməsinin illik hesabatında yer almış faktların işığında baxaq.

### Hesabatlılıq məsuliyyəti

AMEA Rəyasət Heyətinin 25 yanvar 2025-ci ildə keçirilmiş iclasında AMEA-nın vitse-prezidenti, İctimai Elmlər Bölməsinin Elmi Şurasının sədri, akademik Gövhər Baxşəliyevanın bölmənin 2024-cü il üzrə elmi və elmi-təşkilati fəaliyyəti haqqında hesabatından həm şeydən öncə hesabatlılıq məsuliyyəti aydın hiss olunurdu. Bölmə rəhbərliyi və hər bir elmi-tədqiqat institutunun qarşıya qoyulan vəzifələrə xüsusi məsuliyyət və diqqətlə yanaşdıqları aydın görünürdü. Bunu əldə edilən illik nailiyyətlərin say və keyfiyyəti aydın göstərirdi. Nümunə kimi Fəlsəfə və Sosiologiya İnstitutunda illik nailiyyət kimi təqdim edilən əsərlərin mövzuları və onların işlənmə dərəcəsini göstərə bilərik. Eyni qənaəti Şərqşünaslıq, Tarix və Etnoqrafiya, Arxeologiya institutları haqqında deyə bilərik.

İctimai elmlər bölməsində elmi tədqiqatlara yanaşmaqda və onun yerinə yetirilməsində prioritet mövzuların düzgün müəyyən edilməsində bu cür pozitiv dəyişiklik səbəbsiz deyildir. Əslində onun başlıca xüsusiyyətlərini AMEA prezidenti hesabat iclasında ifadə etdiyi ümumi tezislərdə açmışdır. Onların sırasında mənim təsəvvürümdə çox əhəmiyyətli olan iki məqam üzərində dayanmaq istərdim.

Birincisi, AMEA prezidenti təşkilatın yaradıcı kollektivinin son illərdə apardıqları elmi tədqiqatların fundamental monoqrafik əsərlərdə daha çox əks olunduğunu vurğulamaqla yanaşı, onların "əhatə dairəsinin daha da genişləndirilməsinə ehtiyac yarandığı" fikrini söyləmişdir. Bu tezisin yuxarıda xatırladılan 7 prioritet istiqamətin mahiyyəti və ümumi ruhu ilə sıx bağlılığı vardır. Yəni "niyə həm monoqrafik tədqimatın sayının artırılmasına, həm də onların mövzu baxımından əhatə dairəsinin genişləndirilməsinə ehtiyac yaranmışdır", nə gəlişi gözəl fikirdir, nə özünüreklamdır, nə də ritorik deyildir. Bu tezis yeniləşmənin məntiqi tərkib hissəsi, sistemli fəaliyyətin davamlılığına vurğu və məsuliyyətlə yola davam etmək üçün elmi dəvətdir, səslənişdir.

Onun konkret arqumentlərini akademik İsa Həbibbəyli sonrakı fikirlərində aydın ifadə etmişdir. Fakt kimi akademikin aşağıdakı fikirlərini gətiririk: "...AMEA-da alimlərimizin milli düşüncəsinin, təfəkkürünün məhsulu olan Nizamiyə, Nəsimiyə, Füzuliyə həsr olunmuş kollektiv monoqrafiyalar ərsəyə gətirilib, lakin Atabəy Şəmsəddin, Şah İsmayıl Xətai, Nadir şah kimi görkəmli tarixi şəxsiyyətlərimiz hələ də tərcümə materialları əsasında öyrənilir. AMEA prezidenti bildirib ki, 2024-cü ildə akademiyada ədəbi-tarixi şəxsiyyətlərin yenidən öyrənilməsi konsepsiyası istiqamətində mühüm addımlar atılıb və bu istiqamətdə ilkin nəticələr əldə olunub. Vurğulayıb ki, bu gün Azərbaycanın tarixində böyük xidmətləri olan görkəmli şəxsiyyətlərin öyrənilməsi ictimai və humanitar elmlərin qarşısında mühüm vəzifə kimi dayanır. Qeyd edib ki, Azərbaycan aliminin azərbaycançılıq düşüncəsi ilə ərsəyə gətirdiyi əsərlər yeni nəsillərin milli vətənpərvər ruhda tərbiyəsində mühüm rol oynayacaq və bu, akademiyanın, Azərbaycan elminin, alimlərinin mənəvi borcudur (bax: https://science.gov.az/az/news/open/31382).

Bunları üç aspekt üzrə qruplaşdıra bilərik. Birincisi, "AMEA Azərbaycan aliminin azərbaycançılıq düşüncəsi"nə sahib olmasında həm çalışqandır, həm israrlıdır, həm də onun praktiki ifadəsi xətindən dönməyəcəkdir! İctimai bölmənin hesabatında gətirilən faktların hər birinin bu yanaşmaya uyğun olduğu aydın görünürdü. Bu baxımdan təşkilatın müxtəlif elmi-tədqiqat institutlarında türkologiyanın, türk xalqlarının müasirlik kontekstində fəlsəfəsinin tədqiqinin önəmi üzərində bir daha düşünmək olar. O cümlədən, Fəlsəfə və Sosiologiya İnstitutunda türk xalqlarının fəlsəfəsini məhz müasirlik kontekstində tədqiq etməyə başlayan şöbənin fəaliyyəti ilə Tarix, Şərqşünaslıq, Folklor, Ədəbiyyat institutlarının türkologiya ilə bağlı apardıqları tədqiqatlar arasında fənlərarası bağlantı qurmaq olduqca əhəmiyyətli görünür. Çünki burada söhbət heç də və qətiyyən etnik kimlikdən getmir – əsas məqsəd, AMEA rəhbərliyinin məsələni qoyduğu kimi, Azərbaycan alimində azərbaycançılıq düşüncəsini maksimum faydalılıqla necə inkişaf etdirməyin əsaslı elmi nümunələrini tapmaqdan ibarətdir! Məncə, dövləti və elmi əhəmiyyəti möhtəşəm olan və strateji mahiyyəti şübhə doğurmayan vacib yanaşmadır!

İkincisi, AMEA rəhbərliyi azərbaycançılıq düşüncəsinin real inkişaf etdirilməsi üçün iki mühüm istiqaməti də həmin tədbirdə ifadə etmişdir. Onlardan biri bütövlükdə "Azərbaycanın tarixində böyük xidmətləri olan görkəmli şəxsiyyətlərin öyrənilməsi"-dir! Elmi baxımdan əsrlərdir ki, yad təsirlər nəticəsində axsadığımız və məncə, ən yaralı yerimiz olan budur. Əgər bir cəmiyyətin ziyalısı ölkənin tarixində böyük xidmətləri olanların ideyalarını tam, obyektiv və dövlətçilik kontekstində milli mövqedən sona qədər dərk edə bilmirsə, o, əsl azərbaycançı, çətin ki, olsun (bir az sərt ifadədirsə, iliyinə qədər azərbaycançı olan hər kəsdən üzr istəyirəm!)! Lakin həqiqətdir: indiki mərhələdə məsələnin bu cür qoyuluşunu alimlər və təhsil sahəsində çalışanlar prinsipial mövqe kimi qəbul etməlidirlər!

Üçüncüsü, AMEA prezidenti hesabat iclasında açıq və aydın ifadə etmişdir: "AMEA-da alimlərimizin milli düşüncəsinin, təfəkkürünün məhsulu olan Nizamiyə, Nəsimiyə, Füzuliyə həsr olunmuş kollektiv monoqrafiyalar ərsəyə gətirilib, lakin Atabəy Şəmsəddin, Şah İsmayıl Xətai, Nadir şah kimi görkəmli tarixi şəxsiyyətlərimiz hələ də tərcümə materialları əsasında öyrənilir".

Bu fikirlər vurğuladığımız ikinci qrup fikirlərin konkret obyektlərini göstərir. Yəni Nizami, Nəsimi, Füzuli və başqa mütəfəkkirlərin tədqiqi nə qədər önəmlidirsə, Atabəy Şəmsəddin, Şah İsmayıl Xətai, Nadir şah və digər görkəmli dövlət adamlarının tədqiqi də bir o qədər önəmlidir. Burada AMEA prezidenti elmi-bədii, sənət yaradıcılığı ilə dövlətçilikdə azərbaycançılıq məfkurəsinin vəhdəti kontekstində çox gözəl və mühüm məntiqi keçidi aktuallaşdırır. Onun üzərində geniş dayanmaq gərəkdir.

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

---

# "Böyük manipulyator"

**Ma k ENDEVELD**

***(əvvəli qəzetin ötən saylarında)***

### Yelisey sarayında pərdəarxası müharibə

Belə bir kontekstdə hər işə burnunu soxan, hamıya göstəriş verən, sözün əsl mənasında, sarayda özünü kraliça kimi aparan Brijit Makronla prezidentin gənc xüsusi müşaviri İsmael Emelien arasında gərginlik yaranır. Əslində, bu gərginlik onların arasında çoxdan hökm sürür – bu iki adam heç vaxt bir-birini sevməyib. Onların ikisi də siyasi və emosional tərəfdən Emmanuel Makronla yaxın olduqlarından, biri digərini prezidentə qısqanır. "Heç bilmirəm Emmanuel bu İsmael Emelienə nə görüb?", – deyə Brijit Makron müntəzəm olaraq yaxın dostlarının arasında Emelienin kölgəsini qılınclayır. İqtisadiyyat Nazirliyinə siyasi müşavir kimi gələn gündən İsmael Emelien istədi-istəmədi Makronun arvadı ilə dil tapmalıydı, ancaq alınmadı. necə deyərlər, iki daş arasında qalır.

Göründüyü kimi, onun iki – biri rəsmi, o biri qeyri-rəsmi – yaxın siyasi məsləhətçisi arasında əsl müharibə gedir: "Hər işə ciddi yanaşan, hər şeyə nəzarət edən Emelien, Brijitin ona dəstək olmamasını, ümumiyyətlə, onu saymamasını həzm edə bilmirdi...", – deyə cütlüyün yaxın dostlarından biri ovaxtkı təəssüratlarını bizimlə bölüşdü. İş o yerə çatır ki, düşməninə daha ağır xəsarət yetirmək üçün Brijit, qəsdən "Havas" şirkətinin onurğa sütunu, İsmaelin qatı düşməni olan reklam agenti Jak Seqelaya yaxınlaşır. Bu sonuncu, Emelienin dostu və yol göstərəni Stefan Fuks ilə də açıq-aşkar müharibə aparır. Seçkilərin birinci turunun axşamı, namizədin kampaniyasının komandası məşhur "La Rotonde" restoranında (Bu restorana yığışmaq Brijitin ideyası idi) ilk turun nəticəsini bayram edəndə İsmael Emelien gələcək prezidentin nahar etdiyi ikinci mərtəbəyə buraxılmır. (!)

Təbii ki, Brijitin göstərişi ilə. Namizədin arvadı heç vaxt razı ola bilməz




2016-cı ilin əvvəlindən Brijit Makron İsmael Emelienin yerinə adam axtarır ki, onu nazirlikdən uzaqlaşdırıb, təzəlikcə yaranan "Hərəkətdə!" hərəkatına göndərsin. Bundan sonra "Publicis" şirkətinin rəhbəri Moris Levi Makron cütlüyünə məsləhət görür ki, onda İsmael Emelienin yerinə əvvəllər LVMH firmasında və Bollore qrupunda çalışmış Silvan Fortu siyasi müşavir təyin etsin. Beləliklə, gələcək birinci xanımla yeni müşavir arasında yaxşı münasibətlər yaranır... ancaq hələlik.

Yelisey sarayının "Dialoq və xatirə" üzrə xüsusi müşaviri təyin olunmamışdan əvvəl Silvan Fort, gələcək prezidentin namizədlik kampaniyasına mətbuat direktoru kimi qoşulur. O zaman gələcək birinci xanım onun intellektual baqajına və klassik mədəniyyətinə vurulur. Gəncliyində opera müğənnisi olan Fort, həm prestijli Normal Yüksək Məktəbinin məzunu, həm də Almaniya mədəniyyəti və tarixi üzrə gözəl mütəxəssisdir. Onun siyasi profili sağçıdır. 2011-ci ildə bu adam Nikola Sarkozinin ali təhsil naziri, Patrik Buissonun (2007-2018-ci illərdə Milli tələbələr Federasiyasının vitse-prezidenti) sevimlisi Loran Voqiyez ilə yaxınlıq edib. Həmin il o, "Vivendi" şirkətinin kiçik "Fortu qrupuna" daxil olur ki, Nikola Sarkozinin ikinci dəfə prezident seçilməsinə dəstək olsun. Bu qrupda o, sağçılar partiyasından olan məşhur animator Qiyyom Peltiye ilə Nikola Sarkozinin "sağ əli", onun çıxışlarını yazan Kamiy Paskal, eləcə də TF1 televiziya kanalının iki keçmiş jurnalisti Şarl Vilnöv və Etİən Muqot ilə tanış olur. Ancaq Sivan Fortun indiki seçimi o qədər də təəccüblü deyil. 2016-cı ilin iyul ayında Emmanuel Makron mətbuat xidmətində çalışan Robert Zaraderə etiraf edir ki: "Kampaniyamız ancaq sağçıların köməyi ilə qalib gələcək...". Bir neçə həftə sonra Makron sifətində riyakar bir təbəssümlə Püy dü Fu şəhərinə gedib Filip dö Vilye (yazıçı, siyasi xadim, Avropa deputatı, 1994-2018-ci illərdə Fransa hərəkatı partiyasının baş katibi) ilə görüşür. Belə çıxır ki, gələcək prezident, vitse-prezident tərəfindən mükəmməl şəkildə təlim alıb.

Brijit Makron ilə İsmael Emelien arasında müharibə hələ də bitməyib. 2016-cı ilin payızında bu missiya icraçısı seçicilərlə sorğu-sualdan sonra öz qəhrəmanına (Makron) yaxınlaşıb ona tövsiyə edir ki, arvadının ipini bir az yığsın və hər dəfə onu camaatın gözünə soxmasın.

"... O vaxt Brijit hamı tərəfindən şou göstərən bir artist, ancaq bahalı brend paltarlar geyinən, taxdığı daş-qaşları ilə varlı olduğunu reklam edən bir adam kimi özünü aparırdı...", – deyə onlara yaxın olan bir adam qeyd edir. Bütün bu atmosferlə, bu tənqidlərə baxmayaraq, namizəd Makron həyat yoldaşına heç bir söz demir. Ancaq bununla belə, gələcək prezident xüsusi məsləhətçisi İsmael Emeliendən də ayrılmaq istəmir. Makron, ki, kampaniyanın başlanğıcında onu komandadan qovmağı təklif edən hansısa bir missiya icraçısı, birinci turun qalibi ilə bir stol arxasında otursun... Bu azmış kimi bir neçə gün sonra gələcək birinci xanım yaxın bir rəfi qəsinin yanında düşmənindən ərinə yenə də şikayət edir: "İsmael Emelien yalquzaq kimi təkdir. Onun əlindən heç nə gəlmir...".

### Barışıq qonaqlığı

Yelisey sarayında ofislərin neçənci mərtəbədə və harada yerləşməsi, prezidentin kimə yaxın, eləcə də kimin prezidentə yaxın olmağının simvoludur. İsmael Emelien ilə Stefan Fort sarayın qərb cinahındakı mərtəbədə, parlament müşaviri Stefan Sejurnenin kabinetinin yanındakı ofislərdə yerləşdirilir. Brijit Makron özü isə sarayın şərq cinahında, prezident cütlüyünün şəxsi mənzillərinin alt mərtəbəsində yerləşən ofisdə, onun kabinet direktoru Pier-Oliviye Kosta və aparat rəhbəri Tristan Brometin ofislərinin yanında məskən salır. Brijitin yaxın dostu Brüno Rojr-Peti prezidentin müşaviri təyin olunanda, ona təbii ki, birinci xanımın ofisinin yanında kabinet verilir. Bir müddət sonra mətbuat tərəfindən "kampaniyanın təşviqat direktoru" kimi təqdim olunan Jan-Mari Jirie birinci xanım tərəfindən işdən azad olunub Yelisey sarayından qovulur. Niyə, nə səbəbə? Ona görə ki, prezident cütlüyü Yelisey sarayına yenicə köçəndə bu adam Brijit Makrona və onun komandasının üzvlərinə sarayın "yaxşı" mərtəbələrində yer ayırmamışdı. Yeliseydən qovulan Jirie Daxili İşlər Nazirliyində, Jerard Kollombun yanında özünə yeni iş tapacaq. O, vaxtilə Lion şəhər meriyasında Kollombun kabinet direktoru olmuşdu.

Hakimiyyətə gələndən sonra Brijit Makronun sayıqlığı birə beş artır. Və bütün konvensiyalara, bütün protokollara və etiketə zidd olmağına baxmayaraq, prezidentin arvadı bir neçə nazirlə, xüsusilə də milli təhsil naziri Jan-Mişel Blanke ilə birbaşa kontakta girməkdən çəkinmir. Keçmiş fransız dili müəllimi üçün Milli Təhsil Nazirliyi onun şəxsi yaylağıdır. "Emmanuel Makron belə şeylərə tamamilə etinasız yanaşır", – deyə nazirlərdən biri etiraf edir. "Actes Sud" nəşriyyatının direktoru Fransua Nysseni mədəniyyət naziri təyin etmək Emmanuel Makronun ağlına da gəlməzdi – bunu prezidentə arvadı təklif etmişdi. Brijit onu Franklin küçəsindəki liseydə müəllimə işlədiyi vaxtlardan tanıyırdı. Yelisey sarayına ayaq basandan, birinci xanımın daxilində yalnız bir şey dəyişməyib: onun İsmael Emelienə qarşı nifrəti. 2018-ci ilin yazında Yelisey sarayında onları barışdırmaq üçün dəbdəbəli bir nahar təşkil olunur. Ancaq məclis çox soyuq və darıxdırıcı keçir...

**(ardı var)**

# Xəzərdə polad neft adası

(əvvəli 1-ci səhifədə)

"Azəri–Çıraq–Günəşli" yataqlar blokunda neft hasilatının sabitləşdirilməsinə və layların neft veriminin maksimuma çatdırılmasına imkan yaradan layihənin ümumi dəyərinin, təqribən, 4 milyard dolları qurğuların tikintisinə və qabaqlayıcı qazma proqramına xərclənib. Məbləğin qalan hissəsi isə istismar müddəti dövründə platformadan hasilat quyularının qazılmasına sərf olunur. Ölkə neft sənayesinin tarixində mühüm əhəmiyyətə malik olan bu qurğunun hazırlanması yerli mütəxəssislər tərəfindən həyata keçirilib.



Yeri gəlmişkən, "Qərbi Çıraq" BP şirkətinin "Azəri-Çıraq-Günəşli" layihəsinin operatoru qismində Xəzərdə inşa və istismar etdiyi dünya səviyyəli 8-ci dəniz platformasıdır. Platforma gündəlik 25 min ton neft və 6,5 milyon kubmetr qaz hasilatı üçün layihələndirilib. Bununla yanaşı, qurğu gün ərzində 8 milyon kubmetr səmt qazı ötürmək imkanına malikdir.

Layihə çərçivəsində nəzərdə tutulan tikinti-quraşdırma işlərinin mühüm hissələrindən sayılan "Qərbi Çıraq" platformasının dayaq bloku Heydər Əliyev adına Bakı Dərin Özüllər Zavodunda inşa olunub. "Bos Şelf" yerli Azərbaycan şirkətinin podratçısı olduğu dayaq bloku Xəzər dənizində həmin dövrədək inşa edilmiş ən ağır qurğudur. Blokun çəkisi 17 min 500 ton, hündürlüyü 185 metr təşkil edir. Qurğunun ümumi çəkisi 6 min 700 ton olan 13 (üstəgəl bir ehtiyat) dirəyi, 7 dikborusu, 8 "J" şəkilli və 10 qoruyucu borusu var.

"Çıraq" neft layihəsinin əsas qurğularından sayılan hasilat platformasının üst modulları isə AMEC-TEKFEN-AZFEN alyansının Bibiheybət tikinti-quraşdırma sahəsində inşa olunub. "Qərbi Çıraq" platformasının üst modullarının çəkisi 18 min 500 tondur. Platforma 200 nəfər işçinin çalışması üçün nəzərdə tutulub. Layihəyə 48 quyu gövdəsinə malik bir ədəd hasilat, qazma, yaşayış platforması, 14 düymlük qaz kəməri və 30 düymlük neft kəməri daxildir. "Qərbi Çıraq" dənizin 170 metr dərinliyində "Çıraq-1" və "Dərinsulu Günəşli" platformaları arsında quraşdırılıb.

Yeri gəlmişkən, "Çıraq" neft layihəsi üzrə tələb olunan bütün tikinti-quraşdırma işləri, qurğu və avadanlıqların inşası tamamilə ölkə daxilində həyata keçirilib. Platformanın dayaq blokunun və üst modullarının inşasında Azərbaycan Dövlət Neft Şirkətinin birgə müəssisələrindən, gəmilərindən, tikinti-quraşdırma sahələrindən və digər zəruri infrastrukturundan istifadə olunub. Bu da "Əsrin müqaviləsi" çərçivəsində ilk dəfə reallaşdırılan bir təşəbbüs kimi diqqət çəkir.

Layihənin tikinti-quraşdırma işləri dövründə 20 milyon-adam iş saatı sərf edilib. Qurğunun tikintisinə isə 5 min nəfər cəlb olunub. Subpodratçı və təchizatçı mütəxəssislərin də daxil olduğu işçi qüvvəsinin 96 faizini yerli Azərbaycan vətəndaşları təşkil edib. Bütövlükdə isə, layihə çərçivəsində tikinti-quraşdırma işləri heç bir istehsalat qəzası baş vermədən yüksək səviyyədə həyata keçirilib.

"Qərbi Çıraq"dan hasilat 2014-ci il yanvarın 28-də J05 öncəqazma quyusunun istismara daxil edilməsi ilə başlanıb. Xam neft öncədən platformada quraşdırılmış texnoloji qurğulardan keçərək yeni yataqdaxili boru kəməri vasitəsilə mövcud 30 düymlük sualtı ixrac xətti ilə Səngəçal terminalına nəql olunur. Ötən müddətdə buradan 241 milyon barel və ya 33 milyon tondan artıq neft hasil olunub. Platformada maksimal illik hasilat isə 2016-cı ildə qeydə alınıb. Həmin il buradan orta gündəlik hasilat 120 min barel olmaqla 6 milyon ton neft çıxarılıb.

# Aqrar subsidiyada yeniliklər

**Aqrar Subsidiya Şurası əkin subsidiyalarının alınması üçün sığortalanması tələb olunan bitkilərin siyahısı və onların əkin sahələrinin minimum ölçüləri ilə bağlı yeni qərarlar qəbul edib. Bu barədə XQ-yə Kənd Təsərrüfatı Nazirliyindən məlumat verilib.**

Bildirilib ki, ölkə Prezidentinin 27 iyun 2019-cu il tarixli fərmanı ilə təsdiqlənmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"na uyğun olaraq yeni tələblər müəyyənləşdirilib. Dəyişikliklərə əsasən, birillik bitkilər – arpa, buğda, çəltik və qarğıdalı üçün əsas və təkrar əkin subsidiyalarının alınması üçün ümumi əkin sahəsi 10 hektar və ya daha artıq olmalıdır. Çoxillik bitkilər – üzüm, çay, fındıq, nar, zeytun, limon, kinkan, narıngi, portağal, şaftalı (nektarin), ərik, alma, armud, gilas, xurma (xirnik), badam və qoz bağları üçün isə minimum əkin ölçülərinə uyğun olaraq sığortalanma tələb olunur.



Aqrar Subsidiya Şurasının subsidiya əmsalları ilə bağlı qərarına əsasən 2025-ci ildə yeni subdidiyaların tətbiqi də planlaşdırılır. Belə ki, qaragilə (mavigilə) əkin subsidiyası Şirvan –Salyan, Dağlıq Şirvan, Abşeron –Xızı və Lənkəran – Astara iqtisadi rayonları ilə yanaşı Quba – Xaçmaz iqtisadi rayonlarını da əhatə edir. Bu ildən torf və perlit qarışığında dibçəklərdə əkilən bağlara 15 min manat subsidiya veriləcək. Turşuluq səviyyəsi 6,5-dən artıq olmayan torpaqlarda, damcı suvarma sistemi ilə təmin olunmuş və 1 hektara minimum 3 min 400 tingin əkildiyi qaragilə bağlarına isə 7 min 500 manat subsidiya ayrılacaq.

Cari il üçün tətbiq olunacaq yenə şərtlərdən biri də iqlim stansiyalarının qurulmasıdır. Əsasən, üzüm, çay və intensiv meyvə bağlarının əkin subsidiyalarının alınması üçün 15 hektar və ya daha artıq sahəyə malik fermerlərdən iqlim stansiyası qurulması tələb olunacaq. Qeyd edək ki, bu tələblər yalnız 2025-ci il yanvarın 1-dən sonra salınan bağlara şamil ediləcək.

Şura bu ildən şəkər çuğunduru əmsallarında da dəyişiklik edib. Belə ki, müasir suvarma sistemi ilə təmin olunmuş sahələr üzrə məhsul əmsalı 19 manatdan 22 manata, müasir suvarma sistemi olmayan sahələrdə isə 18 manatdan 19 manata qədər artırılıb.

# Bərdə–Ağdam dəmir yolu əvvəlki mənzilinə çatır

**Bərdə–Ağdam dəmir yolu xətti üzrə layihələndirmə işlərinin 95 faizi, tikintinin isə 94 faizi tamamlanıb.**



"Azərbaycan Dəmir Yolları" QSC-dən "XQ"yə verilən məlumata görə, Bərdə–Ağdam dəmir yolu xəttinin layihələndirilməsi və inşasına 2021-ci ildə başlanılıb. Birinci mərhələdə Bərdə stansiyası, Köçərli stansiyası, Təzəkənd stansiyası və xidməti binaların tikintisi başa çatdırılıb.

İkinci mərhələdə isə Ağdam dəmiryol və avtovağzal kompleksində tikinti işlərinin həyata keçirilməsi nəzərdə tutulub. Bir müddət bundan əvvəl isə Ağdam–Xankəndi yolunun bərpası üçün layihələndirmə işlərinə başlanılıb.

# "AzerGold" QSC – "2024-cü ilin ən yaxşı tərəfdaşı"

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi "AzerGold" Qapalı Səhmdar Cəmiyyətini ətraf mühit layihələrində "2024-cü ilin ən yaxşı tərəfdaşı" nominasiyası üzrə təltif edib.**



Nazirliyin məlumatına görə, "AzerGold"a verilən bu mükafat qurumun 2024-cü ildə icra etdiyi "Daşkəsən rayonunda bitən nadir bitkilərin reintroduksiyası" və "Təmiz Daşkəsən" layihələri ilə ətraf mühitin mühafizəsinə verdiyi töhfələrə görə layiq görülüb. Mərasimdə, eyni zamanda, təbiətin mühafizəsi və ətraf mühitin qorunması ilə bağlı təşəbbüslərə qoşularaq ətraf mühitin sağlamlaşdırılmasına dəstək göstərən digər sahibkarlıq subyektləri və qeyri-hökumət təşkilatları da müxtəlif nominasiyalar üzrə təltif edilib.

Qeyd edək ki, "AzerGold" fəaliyyət göstərdiyi bölgələrdə ətraf mühitin mühafizəsi və sosial məsuliyyətlilik prinsiplərini daim diqqətdə saxlayıb. Səhmdar cəmiyyəti "Yaşıl dünya naminə həmrəylik ili" elan edilən 2024-cü ildə hasilat və istehsalat fəaliyyəti həyata keçirdiyi Daşkəsən rayonunda ətraf mühitin mühafizəsi sahəsində ardıcıl və kompleks tədbirlərini davam etdirib.

Qurum 2021-2024-cü illərdə gerçəkləşdirdiyi "Daşkəsən rayonunda bitən nadir bitkilərin reintroduksiyası" layihəsi çərçivəsində ötən il Azərbaycan Respublikasının "Qırmızı Kitabı"na daxil edilmiş nadir, nəsli kəsilmək təhlükəsində olan bitki növlərinin "Çovdar" qızıl mədəni ətrafında çoxaldılması və reintroduksiyası işləri uğurla tamamlayıb.

"Təmiz Daşkəsən" ekoloji layihəsi çərçivəsində isə, ümumilikdə, 10 hektara yaxın ərazi plastik, polietilen, metal, şüşə, kağız, karton və digər tərkibli tullantılardan təmizlənib, Daşkəsən şəhərinin müxtəlif küçələrinə yeni tullantı konteynerləri və zibil qutuları yerləşdirilib.

Bundan başqa, qış aylarında yem tapmaqda çətinlik çəkən quşların bəslənməsinə və mühafizəsinə dəstək məqsədilə "Çovdar" qızıl mədəninin ətrafındakı meşə ərazisində ekoloji təmiz quş yemlikləri quraşdırılıb, onların mövsümlük yem ehtiyacı qarşılanıb, ərazidə ağacəkmə və yaşıllaşdırma işləri davam etdirilib.

# Şərq – Qərb marşrutu ilə daşımalar artıb

**Son 20 ildə Azərbaycanda dəmir yolları ilə yükdaşımaların həcmində böyük artım qeydə alınıb. Ölkənin polad magistralları ilə daşımaların həcmini daha da artırmaq məqsədilə mövcud dəmiryol xətləri yenilənir, beynəlxalq tərəfdaşlıqlar gücləndirilir. Bu barədə XQ-yə "Azərbaycan Dəmir Yolları" (ADY) Qapalı Səhmdar Cəmiyyətindən məlumat verilib.**

Qeyd olunub ki, Azərbaycan dəmir yolları ilə 2022-ci ildən etibarən tranzit daşımaların həcmi əhəmiyyətli dərəcədə artıb. 2024-cü ildə ADY tərəfindən tranzit, idxal, ixrac və daxili rejimlərdə 18,5 milyon tondan çox yük daşınıb. Əvvəlki illə müqayisədə dəmir yolları ilə daşınmış tranzit yüklərin həcmi 5,7 faiz artaraq 7,3 milyon tona, idxal yükləri isə 10 faiz artaraq 5,2 milyon tona çatıb. Əsas tranzit istiqaməti olan Şərq – Qərb marşrutu üzrə isə il ərzində 3,2 milyon tondan çox yük daşınıb.

# Keçmiş ortaqlarla yeni əməkdaşlıq

## *Azərbaycanın xarici ticarətinin üçdə biri MDB ölkələrinin payına düşür*

**Dövlət Gömrük Komitəsinin məlumatına görə, ötən il Azərbaycanla MDB ölkələri arasında 6 milyard 930 milyon ABŞ dolları (ötən ilin eyni dövrü ilə müqayisədə 7,9 faiz çox) dəyərində ticarət əməliyyatları həyata keçirilib. Məlumata görə, hesabat dövründə MDB ölkələri ilə ticarət əməliyyatları respublikanın ümumi ticarət dövriyyəsinin 31,24 faizi qədər olub.**

Bu dövrdə Azərbaycanın ticarət dövriyyəsinin dəyəri Rusiya ilə 4 milyard 799 milyon 819 min ABŞ dolları (1 il əvvələ nisbətən 10,1 faiz çox), Ukrayna ilə 459 milyon 619 min dollar (29,9 faiz çox), Belarusla 506 milyon 171 min dollar (41,9 faiz çox), Qazaxıstanla 470 milyon 442 min dollar (49,7 faiz çox), Özbəkistanla 252 milyon 56 min dollar (40,9 faiz çox), Tacikistanla 7 milyon 93 min dollar (15,8 faiz çox) olub. Bir ildə Azərbaycanın MDB ölkələrinə məhsul ixracının dəyəri 2,73 faiz artaraq 1 milyard 698 milyon 415 min dollara yüksəlib.



Bu dövrdə Azərbaycandan Rusiyaya 1 milyard 178 milyon 347 min ABŞ dolları (illik müqayisədə 1,5 faiz az), Ukraynaya 177 milyon 242 min dollar (49,4 faiz çox), Türkmənistana 80 milyon 242 min dollar (6,8 faiz az), Belarusa 48 milyon 486 min dollar (52,4 faiz çox), Qazaxıstana 133 milyon 116 min dollar (35,1 faiz çox), Özbəkistana 40 milyon 340 min dollar (14,3 faiz az), Qırğızıstana 29 milyon 663 min dollar (50 faiz az), Moldovaya 5 milyon 122 min dollar (50 az), Tacikistana 5 milyon 853 min dollar (17 faiz çox) dəyərində məhsul ixrac edilib.

Ölkənin ümumi ixracında MDB ölkələri 6,40 faiz, o cümlədən Rusiya 4,44 faiz, Ukrayna 0,67 faiz, Türkmənistan 0,30 faiz, Belarus 0,18 faiz, Qazaxıstan 0,50 faiz, Özbəkistan 0,15 faiz, Qırğızıstan 0,11 faiz, Moldova 0,02 faiz, Tacikistan 0,02 faiz paya sahib olub. Ötən il Azərbaycanın MDB ölkələrindən məhsul idxalının dəyəri 9,7 faiz artaraq 5 milyard 230 milyon 668 min dollara yüksəlib.

Bu dövrdə Azərbaycana Rusiyadan 3 milyard 621 milyon 472 min dollar (14,5 faiz çox), Ukraynadan 282 milyon 377 min dollar (20,09 faiz çox), Belarusdan 457 milyon 685 min dollar (40,9 faiz çox), Özbəkistandan 211 milyon 716 min dollar (60,8 faiz çox), Qırğızıstandan 10 milyon 401 min dollar (84,4 faiz çox), Tacikistandan 1 milyon 240 min dollar (10,4 faiz çox) dəyərində məhsul idxal edib.

Ölkənin ümumi idxalında MDB ölkələri 24,84 faiz, o cümlədən Rusiya 17,20 faiz, Ukrayna 1,34 faiz, Türkmənistan 1,44 faiz, Belarus 2,17 faiz, Qazaxıstan 1,60 faiz, Özbəkistan 1,01 faiz, Qırğızıstan 0,05 faiz, Moldova 0,02 faiz, Tacikistan 0,01 faiz paya sahib olub.

Dövlət Gömrük Komitəsinin məlumatına əsasən, ötən il Azərbaycanın Avropa İttifaqı (Aİ) ölkələri ilə ticarət dövriyyəsinin dəyəri isə 19,6 milyard ABŞ dolları (2023-cü ildəki göstəricilərlə müqayisədə 5,2 milyard dollar və ya 21,1 faiz az) olub. İl ərzində respublikamızdan Aİ ölkələrinə 16,8 milyard dollar dəyərində ixrac (1 il əvvələ nisbətən 5 milyard dollar və ya 22,9 faiz az), 2,8 milyard dollar dəyərində idxal (illik müqayisədə 219,7 milyon dollar və ya 7,3 faiz az) əməliyyatları həyata keçirilib. Hesabat ilində Aİ ölkələrinin Azərbaycanın ümumi ixracında payı 63,31 faiz, ümumi idxalında payı isə 13,20 faiz olub.

Bu dövrdə Azərbaycanın ən çox ticarət dövriyyəsi ardıcıl olaraq İtaliya, Almaniya, Çexiya, Xorvatiya, Bolqarıstan və Yunanıstanla qeydə alınıb. Belə ki, 2024-cü il ərzində respublikamızla İtaliya arasında ticarət dövriyyəsinin həcmi 11,4 milyard dollar olub. Dövr ərzində Azərbaycandan İtaliyaya 10,9 milyard dollar dəyərində məhsul ixrac edilib. Öz növbəsində İtaliyadan Azərbaycana 515,8 milyon ABŞ dolları dəyərində məhsul gətirilib. Hesabat dövründə İtaliya ilə ticarət əməliyyatları ölkənin ümumi ticarətində 23,92 faiz paya sahib olub.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Hay sevdalı USAID-in də “kitab”ı bağlanır

## Ağ ev agentliyin bölgənin inkişafına deyil, militarizmə yönəlik “missiyası”na veto qoydu

**ABŞ-ın respublikaçı 47-ci prezidenti Donald Tramp hər gün qəbul etdiyi qərarlar, verdiyi sərəncamlarla dünyanı təəccübləndirməkdə davam edir. Onun maraq doğuran qərarlarından biri də ABŞ Beynəlxalq İnkişaf Agentliyi – USAID-in vasitəsi ilə xarici ölkələrə edilən maliyyə yardımlarının dondurulması ilə bağlıdır. Bu barədə açıqlamasında D.Tramp bildirib ki, əgər agentlik əməkdaşları xarici yardımın dondurulması qərarına məhəl qoymasalar, onları “ciddi intizam cəzası” gözləyir.**

Ağ Evin yeni administrasiyası prezidentin “Öncə Amerika!” siyasətinə uyğun olaraq, USAID-i ABŞ-ın humanitar yardımının dünya üzrə bölüşdürülməsini transformasiya etmək üçün Vaşinqtonun səylərinə qoşulmağa çağırıb. Bu barədə “Reuters” məlumat yayıb. Yanvarın 25-də USAID-in 10 mindən çox əməkdaşına göndərilən təlimatda Birləşmiş Ştatların bütün dünya üzrə xarici yardımının yanvarın 24-də dondurulmasından sonra əlavə göstərişlərin olacağı bildirilir. Mediaya sızmış bəyannamədə deyilir ki, xarici yardım xərclərinin dayandırılması “ümumi dondurulma”, rəsmi Vaşinqtonun bu fəaliyyətə veto qoyması deməkdir. Burada yeganə istisna fövqəladə hallar zamanı humanitar ərzaq yardımı və dövlət məmurlarının xidməti və ezamiyyə xərcləridir. Yanvarın 20-də prezident kimi səlahiyyətlərinin icrasına başlayan Donald Tramp ABŞ-ın xarici yardımlarının onun xarici siyasət prioritetlərinə uyğun olub-olmadığını yoxlamaq üçün 90 gün müddətinə dondurulmasını əmr edib. Buna görə Dövlət Departamenti USAID-ə hətta mövcud və ayrılmış yardımların icrasını dayandırmağı tapşırıb.




*

**ARAYIŞ:** ABŞ dünyanın ən böyük yardım donorudur. Vaşinqton 2023-cü maliyyə ilində müxtəlif ölkələrə 72 milyard dollar yardım ayırıb. 2024-cü ildə təbii fəlakətlərlə üzləşən ölkələrə BMT tərəfindən ayrılan bütün humanitar yardımın 42 faizi ABŞ-ın payına düşüb. USAID-in büdcəsi 27 milyard dollara yaxındır.

Rəsmi Vaşinqtonun maliyyəsi və göstərişi ilə fəaliyyət göstərən Beynəlxalq İnkişaf Agentliyi – USAID dünyanın ABŞ-a loyal ölkələrinə yardımlar göstərən qurum kimi Azərbaycana yaxşı tanışdır. İnkişafa deyil, maliyyə inhisarçılığına, xüsusilə, Cənubi Qafqazda sülhün və sabitliyin, təhlükəsizliyin yaranmasına qarşı çıxan qüvvələrdən biri məhz USAID-dir. Ən azı, son 4 ildə bu təşkilat açıq-aşkar erməniləri dəstəkləyib, onların maraqlarına xidmət edib. Agentliyin belə “inkişaf strategiyasının” əsas səbəbi demokrat Bayden Administrasiyasının bölgədə yürütdüyü bölücülük siyasətidirsə, digər səbəbi onun rəhbərinin – Samanta Pauerin qatı ermənipərəst mövqeyi ilə bağlıdır.

Xeyli vaxtdır ki, bu quruma başçılıq edən xanım Pauer, faktiki olaraq, Cənubi Qafqazda “rəngli inqilablar”, çevrilişlər, süni böhranlar törətməyə çalışanların “maşa”sı rolunda çıxış edir. Keçən ilin sentyabrında USAID Ermənistana maliyyə yardımını iki dəfədən çox – 120 milyon dollardan 250 milyon dollara qədər artırmasını “demokratik proseslər, regional əməkdaşlıq, fəlakət risklərinin idarə edilməsi, kibertəhlükəsizlik, ərzaq və enerji təhlükəsizliyi və s. kimi sahələrə yönəldiləcəyi” ilə izah etmişdi.

Azərbaycan Ordusunun 2023-cü il sentyabrın 19–20-də keçirdiyi lokal xarakterli antiterror tədbirlərindən dərhal sonra – sentyabrın 25-də Samanta Pauerin ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə köməkçisi vəzifəsini icra edən Yuri Kimlə birlikdə İrəvana səfərini, baş nazir Paşinyana prezident Baydenin məktubunu çatdırmasını, sərhədyanı kəndlərə gedərək, burada Qarabağı könüllü tərk etmiş ermənilərlə görüşməsini də unutmamışıq. Haypərəst Pauer bu səfərlə bağlı “X” sosial platformasında etdiyi paylaşımında ermənilərə “tükənməz sevgisindən” bəhs etmişdi. Həmin ilin noyabrında USAID-in Ermənistan ofisi ABŞ-ın “Qarabağ hadisələrindən zərər çəkənlərə” 4,1 milyon dollardan çox əlavə humanitar yardım ayırdığını elan etdi. Üstəlik, xanım Pauer Azərbaycanın işğaldan azad olunmuş ərazilərində “beynəlxalq müşahidə missiyasının yaradılması” təşəbbüsü ilə çıxış etmişdi.

USAID-in yerli missiyasının direktoru C.Allelo isə agentliyin Ermənistana artan maliyyə yardımını belə qiymətləndirmişdi: “Bu yardım bizim Ermənistanla tərəfdaşlığımıza sadiqliyimizi göstərir. Maliyyənin həcmini artırmaqla, proqramlarımızı genişləndirməklə biz Ermənistanın inkişafına və uğur qazanmasına (?) kömək edirik. Ümumi məqsədlərimizə çatmaqda Ermənistan hökuməti ilə işimiz həlledici rola malikdir”. Aydın məsələdir ki, haylara “uğur qazanmaq” üçün şəraitin yaradılmasını dedikdə cənab Allelo haylarda revanşist hisləri qızışdırdıqlarını, İrəvanı militarizmə sürüklədiklərini nəzərdə tuturdu. D.Trampın Ermənistan hakimiyyətini şoka salan bu qərarının hələ uzun müddət müzakirə mövzusu olacağı şübhə doğurmur.

*

Donald Trampın ABŞ Prezidenti kimi ilk fərmanlarından biri də ölkəsini Paris İqlim Sazişindən rəsmən çıxarmaq barədə olub. Birinci prezidentlik dövründə də D.Tramp ölkəsinin Paris Sazişindən çıxması qərarını vermişdi. Amma 2021-ci ilin əvvəlində Ağ evdə onu əvəzləyən Co Bayden bu beynəlxalq razılaşmaya yenidən qoşuldu. Diqqəti çəkən məqam odur ki, Paris razılaşmasından çıxmaq qərarı Kaliforniyada dəhşətli yanğınların tüğyan etdiyi bir vaxta təsadüf edir. Əslində, Trampın bu qərarı təkcə atmosferə sənaye emissiyalarının azaldılması və onların nəticələrinin aradan qaldırılması prosesini ləngitmir, eyni zamanda, dünyada yaşıl enerjinin inkişafına mənfi təsir göstərir.

Donald Trampın qərarının mənfi nəticələrdən biri də iqlim dəyişikliyi ilə bağlı tədbirlərin, o cümlədən Bakıda – COP29-da qəbul edilən qərarların maliyyələşdirilməsinin dayandırılması olacaq. Barak Obama dövründən başlayaraq ABŞ inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyinin təsirlərini azaltmağa kömək edən Yaşıl İqlim Fonduna (GCF) 3 milyard dollar ayırıb. Yerli ekspertlərin fikrincə, Paris Sazişindən çıxmaq ABŞ daxilində yüzlərlə ekoloji standartın geri qaytarılmasına, avtomobillər üçün yanacaq səmərəliyindən tutmuş elektrik stansiyalarından emissiyaların məhdudlaşdırılmasına qədər məsələlərə mənfi təsirini göstərəcək.

Amma vəziyyət o qədər də acınacaqlı deyil. Bakı iqlim konfransında, eləcə də iqlim dəyişikliyi ilə bağlı digər forumlarda qəbul edilmiş sazişlər Vaşinqtonun maliyyəsi olmadan da həyata keçirilə bilər. Dünyada ətraf mühitin mühafizəsi üzrə tədbirlərə dəstək verən aparıcı ölkələr var. Sadəcə, ümid edək ki, həmin dövlətlərin başçıları bu məsələdə Donald Trampdan nümunə götürməyəcəklər.

***İ.HƏSƏNQALA***
***XQ***

# Paşinyanın canına qorxu düşüb

**Ermənistan baş naziri Nikol Paşinyan növbəti cəfəng açıqlama ilə çıxış edib. Yanvarın 25-də ölkəsinin İctimai televiziyasına müsahibə verən N.Paşinyan deyib ki, Bakıda saxlanılan “erməni məhbuslar”dan (?) ifadələr almaq üçün onlara qadağan olunmuş psixotrop maddələr (?) verilir. O iddia edib ki, Azərbaycan tərəfi bunu, guya, regionda eskalasiyaya rəvac vermək məqsədilə edir: “Bizdə belə bir məlumat var ki, regionda gərginliyin artmasına səbəb olacaq bəyanatları qızışdırmaq məqsədilə Bakıda saxlanılan “erməni məhbuslar”a qadağan olunmuş psixotrop maddələr verilir”.**



N.Paşinyan bildirib ki, Bakıda saxlanılanlardan heç kimi siyasi rəqibi hesab etmir. Üstəlik, baş verənlər təkcə ciddi narahatlıq doğuran məsələ deyil, həm də regionda baş verəcək yeni eskalasiyanı qızışdırmaq məqsədilə edilir: “Bizdə məlumat var ki, regional eskalasiyanı qızışdırmaq üçün onlardan ifadə almaq və şahidlik etmək üçün istifadə olunur. Ona görə də “məhbuslar” qadağan olunmuş psixotrop maddələrə (?) məruz qalırlar. Biz bu məsələni bütün mövcud vasitələrlə həll etməyə çalışırıq”.

Qeyd etdiyimiz kimi, Paşinyanın bu açıqlaması cəfəngiyyatdır və heç bir dəlil-sübuta əsaslanmır. Bu bəyanat heç bir çərçivəyə sığışmır. Azərbaycanda saxlanılan və Bakı Hərbi Məhkəməsində məhkəmə prosesi davam etdirilən şəxslərin hər birinin müdafiə, bildiyi dilindən istifadə etmək və digər prosessual hüquqları təmin edilib. Təqsirləndirilən şəxslər vəkillə təmin ediliblər. Baş Prokurorluğun yaydığı məlumatda bildirildiyi kimi, həm ibtidai istintaqın gedişində, həm də ibtidai istintaq tamamlandıqdan sonra təqsirləndirilən şəxslər tərəfindən verilmiş vəsatət və şikayətlərə cinayət-prosessual qanunvericiliyin tələblərinə uyğun şəkildə baxılaraq müvafiq qərarlar qəbul edilib. İş üzrə təqsirləndirilən şəxslərə və cinayət prosesinin digər iştirakçılarına ibtidai istintaqın qurtarması barədə məlumat verilib, onlar cinayət işinin bütün materialları ilə tanış ediliblər. Baş Prokurorluq hələ 2024-cü il dekabrın 17-də yaydığı məlumatda bu istintaq işi ilə əlaqədar qeyd olunan epizodlar üzrə şübhəli bilinən, eləcə də şahid qismində bir çox şəxslərin Ermənistan Respublikasının ərazisində olmasına ciddi əsasları rəhbər tutaraq, Ermənistanın aidiyyəti orqanlarını əməkdaşlığa dəvət etmişdi.

Məhkəməsi keçirilən şəxslərin özlərinin proses zamanı verdikləri açıqlamalar da N.Paşinyanın açıqlaması ilə daban-dabana ziddiyyət təşkil edir. Məsələn, keçmiş qondarma rejimin başçılarından olmuş Arayik Arutyunyan yanvarın 21-də keçirilən açıq məhkəmə hazırlıq iclasında bildirmişdi ki, sağlamlıqla bağlı problemi yarandıqda təcridxanada həll olunur. Təqsirləndirilən A.Arutyunyan digər təqsirləndirilənlərdən fərqli olaraq ev dustaqlığına buraxılması barədə vəkili və ya özü tərəfindən vəsatət verilmədiyini, eləcə də səhhəti ilə bağlı şikayətinin olmadığını qeyd etmişdi. O bildirmişdi ki, ümumiyyətlə, digər təqsirləndirilən şəxslərdən sağlamlıqları ilə bağlı şikayət eşitməyib.

Güman etmək olar ki, N.Paşinyanın açıqlaması A.Arutyunyanın digər bəyanatı ilə bağlıdır. Yada salaq ki, Arayik yanvarın 17-də keçirilən ilk məhkəmə prosesində bildirmişdi ki, Gəncə şəhərinin raketlərlə vurulması ilə bağlı əmri o verməyib. Arutyunyan bəyanatında demişdi ki, 44 günlük müharibə zamanı Gəncənin raketlərlə vurulması ilə bağlı onun bəyanatı olub və buna görə təəssüflənir: “Azərbaycan xalqında belə bir fikir var ki, bu əmri mən vermişəm. Bu qərar mənim tərəfindən verilməyib. Bəli, mənim bu hadisə ilə bağlı bəyanatım var idi. İndi bu bəyanata görə təəssüflənirəm, üzrxahlıq edirəm. Mənim elə bir səlahiyyətim, rəy bildirməyə də imkanım olmayıb. Bu bəyanatı vaxtilə niyə verdiyimi istintaq zamanı ifadəmdə izah etmişəm”.

Arayik bəyanatında Gəncənin vurulması ilə bağlı əmrin kim tərəfindən verildiyini açıqlamamışdı. Amma ehtimal etmək olar ki, bununla bağlı göstəriş Ermənistan hakimiyyətinin yuxarı eşalonu tərəfindən verilib. Dolayısı ilə, Arayik bu açıqlama ilə Paşinyanı nişan verir. İndi Paşinyan da bundan narahat olub və saxlanılan şəxslərin ayıq başla verdikləri bəyanata şübhə ilə yanaşır, onların qadağan olunmuş hansısa psixotrop maddələrin təsiri altında (?) ifadələr verdiklərini iddia edir. Yəni, bu yolla təqsiri öz boynundan atmağa uğursuz cəhd edir.

Ermənistan baş nazirinin açıqlamasına münasibət bildirən Xarici İşlər Nazirliyinin mətbuat katibi Ayxan Hacızadə deyib ki, Paşinyanın, guya, regional eskalasiyaya rəvac vermək məqsədilə keçmiş separatçı rejimin nümayəndələrinə qarşı psixotrop maddələrin tətbiq olunması ilə bağlı səsləndirdiyi iddiaların heç bir əsası yoxdur və tamamilə gülüncdür. Onun sözlərinə görə, təqsirləndirilən şəxslərin bütün hüquq və vəzifələri lazımi qaydada təmin olunub və izah edilib, bütün məhkəmə prosesi və ifadələri qeydə alınıb. Azərbaycanda məhbuslara qarşı qəddar rəftarla bağlı iddialar müstəqil şəkildə, o cümlədən Beynəlxalq Qırmızı Xaç Komitəsi tərəfindən araşdırılıb və bu iddiaların yalan olduğu təsbit edilib.

**Mövzu ilə bağlı fikirlərini XQ ilə bölüşən “Atlas” Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu**



bildirdi ki, Paşinyan, əslində, özünə görə qorxur. Çünki bilir ki, məhkəmə zamanı elə ifadələr səslənə bilər ki, bu, Nikolun məsuliyyətini ortaya qoya bilər: “Məsələn, Arutyunyan məhkəmənin ilk günündə dedi ki, Gəncənin bombalanması əmrini o verməyib. O, sadəcə, belə bir açıqlama verdiyini və buna görə təəssüfləndiyini bildirdi. Əgər Gəncənin bombalanması əmrini Arutyunyan verməyibsə, deməli, Paşinyan verib. Yəqin ki, məhkəmə prosesi zamanı başqa açıqlamalar da veriləcək. Ona görə Paşinyan psixotrop maddələr iddiasını ortaya atır ki, sabah məhkəmədə onun adı hallansa, desin ki, mühakimə olunanlara təsir edilib. Guya, onlar təsir altında Paşinyanın məsuliyyəti barədə açıqlamalar veriblər”.

Politoloq bildirdi ki, Nikol öz canından qorxur: “Paşinyanın Arayik Arutyunyanla, Ruben Vardanyanla heç bir bağlılığı yoxdur. Əksinə, Nikol həmin şəxslərin hazırda azadlıqda olmalarını və Ermənistana gəlmələrini heç istəməz. Bəlkə də onların uzun müddət Azərbaycanda həbsdə qalmaları Paşinyanın ürəyincədir. Sadəcə, məhkəmənin gedişatından qorxur ki, prosesdə onun əleyhinə ifadələr səslənəcək və bu ifadələri Qarabağ separatçıları özləri səsləndirəcəklər. Buna görə də qabaqdangəlmişlik edərək Azərbaycanı ittiham etməyə çalışır ki, guya, psixotrop maddələrdən istifadə olunub”.

**Dövlət İdarəçilik Akademiyasının müşaviri, Bakı Politoloqlar Klubunun rəhbəri Zaur Məmmədov** isə dedi ki,



verdiyi açıqlama N.Paşinyanın narahatlığından irəli gəlir. Onun sözlərinə görə, Paşinyan başa düşür ki, müharibə zamanı verdiyi əmrlər beynəlxalq cinayətdir. Burada söhbət təkcə iki ölkə arasındakı münasibətlərdən getmir. Özünü demokrat adlandıran Paşinyanın gələcəkdə cinayət məsuliyyətinə cəlb edilməsi hüquqi əsas yarada bilər: “Arayik Arutyunyan vaxtilə Gəncənin bombalanmasına dair əmr verdiyini bildirmişdi. İndi isə məhkəmədə bu səlahiyyətə malik olmadığını deyir. Açıq şəkildə qeyd edir ki, bu işdə Ermənistan rəhbərliyi günahkardır. Əlbəttə, məhkəmə istintaqı davam edir və nəticələr barədə ictimaiyyətə məlumat veriləcəkdir. Ermənistan rəhbərliyinin verdiyi bəyanatlar isə narahatlığın nümunəsidir. Əgər Paşinyan narahatdırsa, deməli, onun bu və ya digər hadisələrdə əli var”.

Z.Məmmədov qeyd etdi ki, müharibənin bitməsi müharibə vaxtı törədilən cinayətlərin cəzasız qalacağı demək deyil: “Ermənistan dövləti məğlub oldu. Hər kəs etiraf etdi ki, Ermənistan işğalçı dövlət kimi Azərbaycan torpaqlarını nəzarətdə saxlayıb. Bu, məsələnin bir tərəfidir. Digər tərəfdən, müharibə vaxtı törədilən cinayətlərlə bağlıdır. İstər Birinci, istərsə də İkinci Qarabağ müharibəsidə cinayətlərə yol verənlər cəzalarını almalıdırlar. Məlumdur ki, Birinci Qarabağ müharibəsi dövründə Zori Balayan, Robert Koçaryan, Serj Sarkisyan, eləcə də digərləri Azərbaycan xalqına qarşı böyük cinayətlər törədiblər. Onların imici də hər kəsə məlumdur. İndiki Ermənistan dövlətini idarə edənlər isə bu və ya digər şəkildə sudan quru çıxmaq, dünyada özləri barədə müsbət rəy yaratmaq istəyirlər. Məhkəmə prosesi tam şəffaf şəkildə keçirilməkdədir. Azərbaycan üçün önəmli olan ədalətin zəfər çalması, haqqın qalib gəlməsi, cinayətləri icra edənlərin və sifarişçilərin aşkara çıxarılması və onların cəzalandırılmasıdır”.

**Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının sədri, polkovnik Cəlil Xəlilov** isə bildirdi ki, Ermənistan



baş nazirinin Bakıda məhkəməsi keçirilən erməni separatçılarının, guya, psixotrop dərmanların təsiri altında ifadə verməsi ilə bağlı açıqlaması gülüncdür və bu, İrəvanın ölkəmizə qarşı növbəti təxribatıdır. Polkovnik qeyd etdi ki, Paşinyan bu kimi bəyanatlarla məsuliyyətdən yayınmağa çalışır: “Heç kəsə sirr deyil ki, məhkəmə prosesinə cəlb edilən erməni separatçılarının hamısı həm işğal zamanı, həm də Vətən müharibəsi günlərində xalqımıza qarşı böyük vəhşiliklər törədiblər. Bu gün məhkəmə qarşısına çıxarılan keçmiş qondarma rejimin nümayəndələrinin bəd əməlləri hər kəsə bəllidir. Hazırda həmin əməllərin hüquqi müstəvidə qiymətləndirilməsi, törətdikləri əməllərə görə ədalətli cəzanın müəyyənləşdirilməsi prosesi gedir və Azərbaycan həmin prosesi bütün dünyanın gözü qarşısında, açıq və şəffaf şəkildə həyata keçirir. Paşinyanın məhkəmədə dindirilən separatçıların, guya, psixotrop dərmanların təsiri altında ifadə verməsi ilə bağlı səsləndirdiyi fikirlər absurddur”.

C.Xəlilov hesab edir ki, məhkəməsi keçirilən şəxslər ifadələrində törətdikləri əməllərin bir çoxunun məhz Paşinyanın göstərişi ilə həyata keçirdiklərini deyə bilərlər: “Bununla da, Paşinyanla bağlı yeni ittihamlar, törətdiyi bəd əməllərlə bağlı əlavə sübut və faktlar ortaya çıxacaq. Məhz həmin prosesi qabaqlamaq, ictimai rəyi çaşdırmaq üçün Paşinyan bu cür sərsəm bəyanatlar verir. Ancaq buna ehtiyac yoxdur. Ermənistanın baş naziri bilməlidir ki, heç bir halda məsuliyyətdən qaça, Azərbaycanın separatçılarla bağlı keçirdiyi şəffaf məhkəmə prosesinə kölgə sala bilməyəcək. Azərbaycan xalqına qarşı vəhşiliklər törədənlər mütləq şəkildə məsuliyyətə cəlb olunacaq və layiq olduqları cəzanı alacaqlar”.

***Səxavət HƏMİD***
***XQ***

# Sülh və insanlıq əleyhinə, müharibə və digər ağır cinayətlərdə təqsirləndirilən erməniəsilli şəxslərin məhkəməsi davam etdirilib



**Ermənistan vətəndaşı olan, Azərbaycan Respublikasının Cinayət Məcəlləsinin işgəncə, muzdluluq, müharibə qanunlarını və adətlərini pozma, terrorçuluq, terrorçuluğu maliyyələşdirmə və digər maddələrlə təqsirləndirilən Ruben Vardanyanın məhkəmə prosesinin hazırlıq iclası yanvarın 27-də davam etdirilib.**

Bakı Məhkəmə Kompleksində yerləşən Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxs rus dilində tərcüməçi, habelə müdafiə üçün vəkillərlə təmin olunub.

Məhkəmə hazırlıq iclasında zərərçəkmişlərin, onların hüquqi varislərinin bir hissəsi və onların müdafiəçiləri də iştirak ediblər.

Hazırlıq iclasında Ruben Vardanyanın və onun vəkilinin vəsatətlərinə baxılıb.

Təqsirləndirilən şəxs vəsatətlərini sadalayarkən cinayət işinin materialları ilə ətraflı tanış ola bilmədiyini və müdafiəsinə səmərəli hazırlaşmaq üçün əlavə 30 iş günü vaxt verilməsini məhkəmədən xahiş edib.



“Özümü hüquqi baxımdan müdafiə etməyə hazır olmaq istəyirəm”, - deyə o əlavə edib.

R.Vardanyanın vəkili Avraam Berman iş materialları ilə tanış olmaq üçün yenidən əlavə vaxt verilməsini, habelə təqsirləndirilən şəxsin öz müdafiəsini səmərəli təşkil etməsi üçün hüquq ədəbiyyatlarına çıxış imkanı yaradılmasını xahiş edib.

Bundan sonra ittiham tərəfi vəsatətlərə münasibət bildirib.

Dövlət ittihamını müdafiə edən prokuror prosessual qənaət prinsipindən çıxış edərək, təqsirləndirilən şəxsə bu günə qədər iş materialları ilə tanış olmaq üçün kifayət qədər vaxt verildiyini, o cümlədən ötən prosesdə təqsirləndirilən şəxsin vəsatəti əsasında istintaq materialları ilə tanış olmaq üçün əlavə 10 gün vaxt verildiyini xatırladıb və məhkəmə hazırlıq iclasının müddətinin lüzumsuz uzadılmasına qarşı çıxıb.

Daha sonra dövlət ittihamını müdafiə edən digər prokuror çıxış edərək vurğulayıb ki, ibtidai istintaq zamanı təqsirləndirilən şəxsin müdafiə hüququ pozulmayıb, ittiham aktı Azərbaycan Respublikasının cinayət-prosessual qanunvericiliyinin tələblərinə uyğun tərtib edilib, məhkəmə aidiyyəti qaydalarına riayət olunub.

Nəticədə prokuror təqsirləndirilən şəxsin ittiham olunduğu maddələr üzrə məhkəməyə verilməsini və məhkəmə baxışının təyin edilməsini, habelə təqsirləndirilən şəxsin barəsində seçilmiş həbs qətimkan tədbirinin dəyişdirilmədən saxlanılmasını təklif edib.

R.Vardanyanın vəkili isə cinayət işinin hazırkı mərhələdə baxışa verilməsinə etiraz edib, əlavə vaxt verilməsi üçün hazırlıq iclasının təxirə salınmasını xahiş edib.

Sonra məhkəmə vəsatətlərə münasibət bildirmək üçün müşavirəyə gedib. Müşavirədən sonra qərar elan olunub.

Qərara əsasən, R.Vardanyanın cinayət işi materialları ilə tanış olmaq üçün əlavə vaxt verilməsi ilə bağlı və digər vəsatətləri təmin edilməyib.

Hakim qeyd edib ki, ibtidai istintaq yekunlaşdıqdan sonra təqsirləndirilən şəxsə iş materialları ilə tanış olmaq üçün vaxt verilib, daha sonra isə məhkəmə hazırlıq iclasının ilkin mərhələsində təqsirləndirilən şəxsə iş materialları ilə daha ətraflı tanış olmaq üçün əlavə vaxt verilib. Məhkəmə həmin müddətləri yetərli hesab etdiyindən vəsatəti təmin etməyib. Habelə təqsirləndirilən şəxs barəsində seçilmiş qətimkan tədbirini dəyişmədən saxlayıb.

Cinayət işi məhkəmə baxışına verilib və məhkəmənin növbəti iclası fevralın 6-na təyin olunub.

Xatırladaq ki, Ruben Vardanyan Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, aparma), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə) əməllərinin törədilməsində təqsirləndirilib.

Həmçinin o, həmin Məcəllənin 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279 (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma), 318-ci (Azərbaycan Respublikasının dövlət sərhədini qanunsuz olaraq keçmə) və digər maddələrində nəzərdə tutulan əməllərin törədilməsində ittiham olunur.

***

Daha sonra Ermənistan dövləti və onun silahlı qüvvələri, o cümlədən Ermənistan tərəfindən vaxtilə Azərbaycanın işğal olunmuş ərazilərində yaradılmış qondarma “Dağlıq Qarabağ respublikası” və onun qanunsuz



silahlı birləşmələri tərəfindən Azərbaycana və Azərbaycan xalqına qarşı sülh və insanlıq əleyhinə cinayətlər, müharibə cinayətləri, o cümlədən təcavüzkar müharibə aparma, soyqırımı, əhalini məcburi köçürmə, təqib, işgəncə, hərbi soyğunçuluq və digər qanunsuz əməllərə dair cinayət işi üzrə açıq məhkəmə hazırlıq iclası davam etdirilib.

Bakı Məhkəmə Kompleksində yerləşən Bakı Hərbi Məhkəməsində hakimlər Zeynal Ağayevin sədrliyi, Camal Ramazanovdan və Anar Rzayevdən ibarət tərkibdə keçirilən məhkəmə iclasında təqsirləndirilən şəxslər erməni dilində tərcüməçilərlə, habelə müdafiə üçün vəkillərlə təmin olunub.

Prosesdə zərərçəkmiş qismində tanınmış 531 mindən artıq şəxsin bir qismi, habelə onların nümayəndələri iştirak ediblər.

Əvvəlcə təqsirləndirilən şəxslərin - Bako Saakyanın, Erik Qazaryanın, Araik Harutyunyanın, Melikset Paşayanın, Arkadi Qukasyanın, Levon Mnatsakanyanın, Vasili Beglaryanın, Davit Allahverdiyanın vəkilləri çıxış edərək yeni vəsatətlər təqdim ediblər.

Müdafiəçilər verilmiş ittihamların bir qisminin təqsirləndirilən şəxslərə aid olmadığını bildirərək, cinayət təqibinə həmin hissələrdə bəraətverici əsaslarla xitam verilməsini məhkəmədən xahiş ediblər.

Təqsirləndirilən şəxslər vəkillərinin vəsatətlərini müdafiə ediblər.

A.Harutyunyanın vəkili vəsatət verərək, sübut siyahısına əlavə olunması üçün məhkəməyə sənəd təqdim edib.

İttiham tərəfi həmin sənədin sübutlar siyahısına əlavə edilməsinə etiraz etməyib, lakin qeyd olunan sənədin mötəbərliyinin məhkəmə istintaqının gedişində tədqiq olunacağını bildirib.

Dövlət ittihamını müdafiə edən prokurorlar təqsirləndirilən şəxslər barəsində cinayət təqibinə hissəvi xitam verilməsinə dair vəsatətlərin təmin olunmamasını xahiş edib.

Prosesdə zərərçəkmiş şəxslərin nümayəndələri də çıxış edərək, ittiham tərəfinin mövqeyi ilə razılaşdıqlarını bildiriblər.

Prosesdə Azərbaycan dövləti adından zərərçəkmiş qismində iştirak edən Nazirlər Kabineti Aparatının rəhbəri Rüfət Məmmədov çıxış edərək, vəsatətlərin təmin olunmamasını xahiş edib.

Sonra prokuror çıxış edərək cinayət işi üzrə məhkəmə aidiyyəti qaydalarına riayət olunduğunu, prosessual sənədlərin tərtibatında səhvə yol verilmədiyini, təqsirləndirilən şəxslərin müdafiə hüquqlarının təmin edildiyini, onların barəsində seçilmiş qətimkan tədbirinin dəyişdirilməsi üçün əsasların olmadığını bildirib və məhkəmə baxışının təyin olunmasını təklif edib.

Məhkəmə verilən vəsatətlərə münasibət bildirmək üçün müşavirəyə gedib.

Müşavirədən qayıdan məhkəmə tərkibi müdafiə tərəfinin ötən məhkəmə prosesində və hazırkı iclasda qaldırdığı vəsatətlər barədə qərarı elan edib.

Qərara əsasən, müdafiə tərəfinin bəzi təqsirləndirilən şəxslərin ev dustaqlığına buraxılması və cinayət işinə bəzi epizodlarda hissəvi xitam verilməsi ilə bağlı vəsatətləri təmin etməyib.

A.Harutyunyanın təqdim etdiyi sənəd iş materiallarına əlavə olunub.

Həmçinin məhkəmənin qərarı ilə cinayət işi məhkəmə baxışına verilib, təqsirləndirilən şəxslər barəsində həbs qətimkan tədbiri dəyişdirilmədən qüvvədə saxlanılıb.

Məhkəmənin baxış iclası fevralın 6-na təyin olunub.

Xatırladaq ki, Ermənistan Respublikası və onun silahlı qüvvələri, o cümlədən Ermənistanın yaratdığı qanunsuz “Dağlıq Qarabağ respublikası” və onun qanunsuz silahlı birləşmələri tərəfindən törədilən cinayətlərdə ittiham olunan 15 nəfər - Harutyunyan Arayik Vladimiri, Qukasyan Arkadi Arşaviri, Saakyan Bako Sahaki, İşxanyan Davit Rubeni, Manukyan David Azatini, Babayan Davit Klimi, Mnatsakanyan Levon Henrikoviç, Beglaryan Vasili İvani, Qazaryan Erik Roberti, Allahverdiyan Davit Nelsoni, Stepanyan Qurgen Homeri, Balayan Levon Romiki, Babayan Madat Arakeloviç, Martirosyan Qarik Qriqori, Paşayan Melikset Vladimiriyə qarşı Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 100 (təcavüzkar müharibəni planlaşdırma, hazırlama, başlama və aparma), 102 (beynəlxalq müdafiədən istifadə edən şəxslərə və ya təşkilatlara hücum etmə), 103 (soyqırımı), 105 (əhalini məhvetmə), 106 (köləlik), 107 (əhalini deportasiya etmə və ya məcburi köçürmə), 109 (təqib), 110 (insanları zorakılıqla yoxa çıxarma), 112 (beynəlxalq hüquq normalarına zidd azadlıqdan məhrumetmə), 113 (işgəncə), 114 (muzdluluq), 115 (müharibə qanunlarını və adətlərini pozma), 116 (silahlı münaqişə zamanı beynəlxalq humanitar hüquq normalarını pozma), 118 (hərbi soyğunçuluq), 120 (qəsdən adam öldürmə), 192 (qanunsuz sahibkarlıq), 214 (terrorçuluq), 214-1 (terrorçuluğu maliyyələşdirmə), 218 (cinayətkar birlik (təşkilat) yaratma), 228 (qanunsuz olaraq silah, onun komplekt hissələrini, döyüş sursatı, partlayıcı maddələr və qurğular əldə etmə, başqasına vermə, satma, saxlama, daşıma və gəzdirmə), 270-1 (aviasiya təhlükəsizliyinə təhdid yaradan əməllər), 277 (dövlət xadiminin və ya ictimai xadimin həyatına sui-qəsd etmə), 278 (hakimiyyəti zorla ələ keçirmə və onu zorla saxlama, dövlətin konstitusiya quruluşunu zorla dəyişdirmə), 279-cu (qanunvericiliklə nəzərdə tutulmayan silahlı birləşmələri və qrupları yaratma) və digər maddələri ilə ittiham olunurlar.

***XQ***

# Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2025-ci ilin fevral ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Lənkəran** | Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı | **04** |
| 2. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Hacıqabul** | Hacıqabul, Şirvan, Kürdəmir, Salyan | **06** |
| 3. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Qusar** | Qusar, Quba, Xaçmaz, Şabran, Siyəzən, Xızı | **07** |
| 4. | **Baş prokuror** Kamran Əliyev | **Zərdab** | Zərdab, Ucar, Kürdəmir, Ağdaş, Ağcabədi, Bərdə | **07** |
| 5. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **Zaqatala** | Zaqatala, Balakən | **07** |
| 6. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Goranboy** | Goranboy, Naftalan, Xocalı | **11** |
| 7. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Siyəzən** | Siyəzən, Şabran, Xaçmaz, Quba, Qusar | **11** |
| 8. | **Ədliyyə naziri** Fərid Əhmədov | **Şirvan** | Şirvan, Hacıqabul, Sabirabad, Salyan | **14** |
| 9. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Xaçmaz** | Xaçmaz, Quba, Qusar | **14** |
| 10. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Kürdəmir** | Kürdəmir, Göyçay, Ucar | **14** |
| 11. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Yevlax** | Yevlax, Mingəçevir | **14** |
| 12. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Abşeron** | Abşeron, Sumqayıt, Xızı, Qubadlı, Zəngilan | **21** |
| 13. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Mingəçevir** | Mingəçevir, Yevlax | **21** |
| 14. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Şirvan** | Şirvan, Hacıqabul, Salyan, Neftçala | **21** |
| 15. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Şəmkir** | Şəmkir, Gədəbəy | **21** |
| 16. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Ağstafa** | Ağstafa, Qazax, Tovuz | **21** |
| 17. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Qusar** | Qusar, Quba | **21** |
| 18. | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru** Azər Məmmədov | **İsmayıllı** | İsmayıllı, Ağsu | **21** |
| 19. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Hacıqabul** | Hacıqabul, Şirvan | **24** |
| 20. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Ramin Məmmədov | **Qax** | Qax, Zaqatala, Balakən | **27** |
| 21. | **Energetika naziri** Pərviz Şahbazov | **Saatlı** | Saatlı, Sabirabad, İmişli, Biləsuvar, Hacıqabul | **28** |
| 22. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **Naftalan** | Naftalan, Goranboy | **28** |
| 23. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Lənkəran** | Lənkəran, Astara | **28** |
| 24. | **Mədəniyyət naziri** Adil Kərimli | **Qəbələ** | Qəbələ, Şəki, Oğuz, Qax, Zaqatala, Balakən | **28** |
| 25. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **Abşeron** | Abşeron, Zəngilan | **28** |
| 26. | **“Azərişıq” ASC-nin sədri** Vüqar Əhmədov | **Quba** | Quba, Qusar | **28** |
| 27. | **“Azəristiliktəchizat” ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Masallı** | Masallı, Lənkəran | **28** |

**Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.**

# Özbəkistan ali musiqi məktəbində Azərbaycan ocağı

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin direktoru Akif Marifli ilə Yunus Rəcəbi adına Özbəkistan Musiqi Sənəti İnstitutunun rektoru Eldor Şermanov arasında görüşdə bu ali məktəbdə Azərbaycan ocağının açılması barədə razılıq əldə edilib.**



Rəhbərlik etdiyi ali təhsil müəssisəsindən danışan rektor qeyd edib ki, institut ənənəvi milli musiqi sənəti növlərinin “makom” (muğam), “baxşi” və “katta aşula” ifaçılığı sahəsində kadrlar hazırlayır. XX əsrin əvvəllərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin “Koroğlu”, “Leyli və Məcnun” operaları, “O olmasın, bu olsun”, “Arşın mal alan” musiqili komediyaları özbək tamaşaçısının da qəlbini fəth edib. Bu əsərlər Özbəkistanın musiqi – səhnə, konsert-ifaçılıq repertuarı və tədris-pedaqoji təcrübəsinin ayrılmaz hissəsinə çevrilən ilk musiqili-dramatik, opera tamaşalarının yaranmasına böyük təsir göstərib.

Akif Marifli özbək dinləyicisinə mənəvi cəhətdən yaxın olan Azərbaycan musiqisinin Özbəkistan mədəniyyətində həmişə mühüm yer tutduğunu qeyd edərək 1997-ci ildən Özbəkistanda keçirilən “Şərq tərənələri” Beynəlxalq Musiqi Festivalında Azərbaycanın 3 dəfə Qran-pri və digər yüksək mükafatlara layiq görülərək öz musiqi sənətini uğurla təqdim etdiyini vurğulayıb. O qeyd edib ki, hər iki xalq bir-birinin mədəniyyətindən və ədəbiyyatından zaman-zaman bəhrələnir ki, bu da ortaq türk musiqisinin daha da zənginləşməsi üçün zəmin yaradır.

Görüşdə Özbəkistanda Azərbaycan musiqi sənətinə xüsusi marağı nəzərə alaraq Azərbaycan Mədəniyyət Mərkəzinin institutda Azərbaycan ocağı yaratması barədə razılıq əldə edilib.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin Türküstan üzrə xüsusi müxbiri***

**Daşkənd**

Nəqliyyat layihələri

# Yeni alternativ yol paytaxtın mərkəzində sıxlığı azaldacaq

**Azərbaycan Prezidenti İlham Əliyevin "Bakı şəhərinin inzibati ərazisində avtomobil nəqliyyatı sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 19 aprel 2023-cü il tarixli fərmanı, eyni zamanda, Nəqliyyatı Əlaqələndirmə Şurasının yaradılması ilə bağlı sərəncamı paytaxtın nəqliyyat probleminin həlli üçün kompleks tədbirləri hədəfə alıb.**



Nəqliyyat sektorunda indiyədək həllini gözləyən bir sıra problemlər mövcuddur. Elə dövlətimizin başçısının imzaladığı müvafiq sənədlər də həmin çətinliklərin aradan qaldırılması, bu sahədə dönüşün yaradılması, sözügedən sektorun inkişafının sürətləndirilməsi məqsədi daşıyır.

Qeyd edək ki, uzun illər ərzində mövcud sistemin yenidən qurulması, müasirləşdirilməsi daim diqqət mərkəzində saxlanılıb, bu istiqamətdə çoxsaylı layihələr reallaşdırılıb. İstər yükdaşımada, istərsə də müxtəlif nəqliyyat vasitələri ilə əhaliyə xidmət göstərilməsində yüksək keyfiyyət göstəricilərinə nail olunub. Əlbəttə, bu məsələdə avtomobil nəqliyyatı parklarının yenilənməsinə, xidmət prosesində təhlükəsizliyin təmin olunmasına və yol infrastrukturunun müasir səviyyədə qurulmasına xüsusi önəm verilib.

Nəqliyyat vasitələrinin yenilənməsinin daim diqqətdə saxlamaqla, ölkəmizin iqtisadiyyatının daha da güclənməsinə, əhalinin sosial rifahının daha da yaxşılaşmasına önəmli töhfələr verir.

Göründüyü kimi, nəqliyyat sektoruna göstərilən diqqət və aparılan düşünülmüş siyasət nəticəsində son illərdə bu sahə uğurla inkişaf edib, yol infrastrukturu yenilənib. Yol hərəkətinin təşkilinə gəldikdə isə nəqliyyat vasitələrinin və ya piyadaların təhlükəsizliyini, fasiləsiz və rahat hərəkətini təmin etmək məqsədilə küçə-yol şəbəkəsi daim yenilənib, bu istiqamətdə bir sıra mühəndis və təşkilati tədbirlər reallaşdırılıb.

Bütün bunlara baxmayaraq, sözügedən sistemdə görüləsi işlər də çoxdur. Məsələn, hazırda paytaxt ərazisində avtomobil nəqliyyatı, o cümlədən yol hərəkətinin təşkili sahəsində tənzimləmə və idarəetmə mexanizmlərinin təkmilləşdirilməsinə ciddi ehtiyac duyulur. Bundan başqa, ümumi istifadədə olan avtomobil nəqliyyatı vasitələri və taksi minik avtomobilləri ilə sərnişindaşıma sahəsində rəqabətin nizama salınmasında müəyyən çatışmazlıqlar böyük narahatlıq doğurur. Şübhəsiz ki, hər iki tərəfdə göstərilən xidmətlər baxımından müəyyən nöqsanlar da nəzərə çarpır. Bu isə təhlükəsizliyin və keyfiyyətin yüksəldilməsi məsələlərinin həllini zəruri edir.



Prezident İlham Əliyevin hakimiyyətdə olduğu illər ərzində yol təsərrüfatının inkişafı ilə bağlı qəbul edilmiş proqramlar çərçivəsində aparılan uğurlu islahatlar nəticəsində Azərbaycan yol infrastrukturunun keyfiyyəti reytinqində MDB dövlətləri arasında 1-ci yerdə, dünyanın 140 ölkəsi arasında isə 27-ci yerdə qərarlaşmağa müvəffəq olub.

Dövlət başçısının müvafiq sərəncamlarına əsaslanan Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyi 2004–2024-cü illər ərzində ölkədə 6 min 593,7 kilometr respublika əhəmiyyətli, 11 min 643,6 kilometr yerli əhəmiyyətli, 2 min 529,8 kilometr Bakı şəhər yolları olmaqla, ümumilikdə, 20 min 767,1 kilometr uzunluğunda yeni yollar tikib, yenidən qurub və təmir edib. Beləliklə, yol-nəqliyyat infrastrukturunun beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində aparılan kompleks tədbirlər nəticəsində həm ölkə əhəmiyyətli, həm də şəhər, rayon, qəsəbə və kənddaxili yollar müasir səviyyədə yenidən qurulub. Bu da, öz növbəsində, rahat gediş-gəlişi təmin etməklə, yük və sərnişin daşınmasını asanlaşdırmaqla vətəndaşların həyat şəraitini daha da yaxşılaşdırıb.

Mütəxəssislər bildirirlər ki, ölkədə mobillik, yol hərəkəti təhlükəsizliyi və yol-nəqliyyat infrastrukturu ilə bağlı vahid dövlət siyasəti, vahid institusional sistem, vahid prinsip və yanaşmalar, vahid nəzarət və cavabdehlik olmalıdır. Azərbaycan Respublikası Prezidentinin "Nəqliyyatı Əlaqələndirmə Şurasının yaradılması haqqında" 2023-cü il 19 aprel tarixli sərəncamı da məhz vahidlik, çeviklik, mobillik və səmərəli koordinasiyanın təmin olunması zərurətindən irəli gələn addımdır.

Bütün bunlara əsasən, deyə bilərik ki, dövlətimizin başçısının müvafiq sərəncamı ilə yaradılan Nəqliyyatı Əlaqələndirmə Şurası səmərəli fəaliyyəti ilə nəqliyyatın ayrı-ayrı növlərinin koordinasiyalı fəaliyyətini və əhalinin mobilliyini təmin edir, yol və nəqliyyat infrastrukturunun inkişaf etdirilməsi, yol hərəkətinin təşkili, təhlükəsizliyi və tənzimlənməsinin daim diqqətdə saxlamaqla, ölkəmizin iqtisadiyyatının daha da güclənməsinə, əhalinin sosial rifahının daha da yaxşılaşmasına önəmli töhfələr verir.

Prezident İlham Əliyev bu il yanvarın 7-də yerli televiziya kanallarına verdiyi müsahibəsində Bakının nəqliyyat sistemində nəzərə çarpan problemlərdən birinin– tıxacların aradan qaldırılması istiqamətində gerçəkləşdirilən təşəbbüslərdən də bəhs edib. Dövlətimizin başçısı ötən müddətdə paytaxtda nəqliyyatın intensiv hərəkətini təmin etmək və tıxacları azaltmaq məqsədilə bir çox iri layihələrin icra edildiyini xatırladaraq deyib: "İndi bir çoxlarının yadından, bəlkə də çıxıb, xüsusilə gənc nəsil, bəlkə də, bunu heç bilmir. Vaxtilə nə qədər problemlər var idi, hətta bax, buradan şəhərə getmək üçün, neçə dairə var idi. Mərdəkan dairəsi, Sabunçu dairəsi, Koroğlu dairəsi, ondan sonra Suraxanı dairəsi, hər dairədə tıxac, həmin o aeroport-şəhər yolu, cəmi dörd zolaq, əslində, üç zolaqdan ibarət idi. İkinci, yəni beton yolu adlandırdığımız yol, ümumiyyətlə, yox idi. Bunları sadalamaqla vaxt gedə bilər. Ona görə vaxtilə bir çox tunellər, yol qovşaqları inşa edildi".

Bununla belə, son zamanlar ölkədə iqtisadi fəallığın artması səbəbindən insanların daha çox maşın alması ilə əlaqədar olaraq nəqliyyat vasitələrinin sayı getdikcə çoxalır. Bu da, öz növbəsində, paytaxt yollarında tıxacların daha da artması ilə müşahidə olunur. Ölkə rəhbəri belə halların aradan qaldırılması üçün konkret tapşırıqlar verib. Bakı şəhərinin yeni baş planında bir çox məsələlər kimi tıxacların azaldılması da prioritet istiqamətlərdən biri kimi müəyyənləşdirilib.

Televiziya kanallarına müsahibəsi zamanı bu barədə ətraflı məlumat verən Prezident İlham Əliyev deyib: "Burada avtobus nəqliyyatını metro nəqliyyatı ilə uzlaşdırmaq məsələləri dayanır. Biz son vaxtlar bir neçə metro stansiyasını istifadəyə verdik. Amma bu, kifayət deyil və mənim göstərişimlə yeni 10 metro stansiyası inşa ediləcək. Onların yerləri də seçildi və bu ildən başlayaraq artıq investisiyalar da qoyulacaq. Bununla bərabər, yeni yol infrastruktur layihələrini Bakı şəhərində icra etmək üçün artıq ilk 7-8 layihə seçildi. Beynəlxalq mütəxəssislər cəlb edildi. Biz hansı yollara üstünlük verməliyik. Bəzən yeni yol açılır, amma o, tıxacın azalmasına yox, artmasına gətirib çıxarır. Yəni, burada beynəlxalq təcrübə çox vacibdir və bu məsələ də mütləq öz həllini tapacaq".

Artıq Bakı şəhərinin perspektiv inkişafını nəzərə almaqla paytaxtın Həsən Əliyev küçəsindən Ziya Bünyadov prospektinə paralel olaraq "Koroğlu" metrostansiyasına qədər yeni avtomobil yolunun tikintisinə start verilib. Layihənin xüsusi dövlət əhəmiyyəti nəzərə alınmaqla Heydər Əliyev və Ziya Bünyadov prospektlərində nəqliyyat vasitələrinin sıxlığının azaldılması və hərəkətin təhlükəsizliyinin təmin edilməsi nəzərdə tutulub.

Sözügedən layihə çərçivəsində yol hərəkətinin təşkilinin texniki xarakteristikalarının qısa təhlilinin nəticələri nəzərə alınaraq, ərazidə nəqliyyat problemlərinin əsaslı həlli, əsas nəqliyyat yollarının birbaşa əlaqələndirilməsi, mühüm nəqliyyat funksiyasını yerinə yetirən yollar üzrə optimal birləşmənin təmin edilməsi və alternativ marşrutların yaradılması, habelə ərazidəki nəqliyyat yollarının məntiqi birləşməsinin gerçəkləşdirilməsi, ərazinin küçə-yol şəbəkəsinin nəqliyyat planlaşdırma sxeminin tamamlanması məqsədilə layihənin icrası məqsədəuyğun sayılıb.

Layihənin əsas üstünlükləri Həsən Əliyev küçəsinin davamı olaraq Yusif Vəzir Çəmənzəmənli küçəsinə düzxətli davam etməklə şərq hissədə Ələsgər Qayıbov və Xəlil Rza Ulutürk küçələrinə birləşdirilməsi nəticəsində Təbriz küçəsi ilə Ağa Nemətulla və Əhməd Rəcəbli küçələrinin kəsişmələrində, eləcə də "Nərimanov" metrostansiyası ətrafında müşahidə olunan nəqliyyat sıxlığı azalacaq, habelə Bakı Metropoliteninin "Gənclik" və "Nərimanov" stansiyaları ətrafındakı ərazilərdən "Koroğlu" stansiyası istiqamətində hərəkət edən nəqliyyat vasitələrinin fasiləsiz yerdəyişmələrinin reallaşmasına şərait yaradılacaq.

Eyni zamanda, qeyd edilən yeni yol birləşməsinin yaradılması nəticəsində "Gənclik" və "Nərimanov" metrostansiyaları ətrafındakı ərazilərdən "Koroğlu" metrostansiyası istiqamətində və yaxud əks istiqamətlər üzrə Heydər Əliyev prospekti vasitəsilə yerinə yetirilən nəqliyyat yerdəyişmələrinin azalması və Heydər Əliyev prospektinə alternativ hərəkət marşurutunun yaradılması hesabına bu prospektin yan yolunda müşahidə olunan tıxac hallarının minimumlaşdırılması təmin ediləcək.

Bundan əlavə, qeyd edilən birləşmənin yaradılması nəticəsində şəhərin şərq və mərkəzi qərb periferiyaları arasında Heydər Əliyev və Ziya Bünyadov prospektlərinə paralel və həmin prospektlərin mərkəzi aralığında yerləşən yeni yaşayış massivlərinə alternativ birbaşa nəqliyyat bağlantısının yaradılması gerçəkləşdiriləcək. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin məlumatına görə, şəhər əhəmiyyətli magistral küçə olacaq yolun ümumi uzunluğu 3 min 896 metr, enləri 3,5 metr olmaqla 6 zolaqlı olacaq. Yolda 4 tunelin və 3 yeraltı piyada keçidinin tikintisi nəzərdə tutulub.

Əlbəttə, yeni magistralın çəkilməsi yollarda sıxlığın qarşısının alınması, insanların tıxaclarda vaxt itkisi ilə üzləşməsi kimi problemlərin aradan qaldırılması məqsədi daşıyır. Yaxın gələcəkdə 10 metrostansiyasının tikintisi də nəzərdə tutulur. Bu stansiyaların qarşıdakı 5 il ərzində inşa edilərək istifadəyə verilməsi planlaşdırılır.

Bundan başqa, metro ilə avtobus nəqliyyatının uzlaşması məsələsinə gəlincə, hazırda bir neçə yerdə metrostansiyaları ilə avtobus xətlərinin kəsişməsi baş verir. Amma bunlar əslində mübadilə nöqtələridir. Yəni sərnişinlər yollarına avtobusdan düşdükdən sonra metro ilə davam edə bilərlər. Məlum olduğu kimi, "Koroğlu", "20 Yanvar" və "28 May" metrostansiyalarında belə mübadilə nöqtələri var. Amma bu alt-mərkəzlərin təkmilləşdirilərək daha da inkişaf etdirilməsi nəzərdə tutulur.

***VB AYRAMOV,***
***M.YAQUBZADƏ***
***XQ***

## Ekspert rəyi

**Elməddin MURADLI,**
**nəqliyyat eksperti**



Ölkə Prezidenti cənab İlham Əliyev yol-nəqliyyat infrastrukturu ilə bağlı məsələlərə daim diqqət və həssaslıqla yanaşır. Elə dövlət başçısı bu yaxınlarda yerli televiziya kanallarına müsahibəsi zamanı da məsələ ilə bağlı çox açıq və konkret şəkildə fikir bildirdi. Ölkənin ayrı-ayrı yerlərində yeni yolların çəkiləcəyi qeyd olunmaqla yanaşı, əvvəllər çəkilmiş bəzi yolların tıxac kimi xoşagəlməz hallarla mübarizəyə təsir göstərmədiyini, əksinə bəzən əlavə problemlər yaratdığını açıq şəkildə ifadə etdi. Verilən mesaj bundan ibarət oldu ki, yeni icra olunan yol-nəqliyyat layihələri ilə bağlı məsələlər şəxsən cənab Prezidentin nəzarətindədir və mütləq şəkildə dəyərləndirilir, müzakirə olunur, perspektivli layihələr dəstəklənir.

Ziya Bünyadov prospekti ilə paralel çəkiləcək yeni avtomobil yolu da belə layihələrdəndir. Artıq dövlət başçısının tapşırığı ilə layihənin icrasına başlanıb. Heç şübhəsiz, yeni yol həmin istiqamətdə nəqliyyat sıxlığının azaldılması üçün düşünülmüş ən uğurlu layihələrdən biridir. Çünki Bakı Metropoliteninin "Koroğlu" stansiyasına tərəf çıxış yalnız bir istiqamətdən mümkündür. Bu da paytaxtın əsas ana yollarından biri olan Heydər Əliyev prospektinin səbəbsiz yerə tez-tez tıxanmasına səbəb olur. Məlum olduğu kimi, Heydər Əliyev prospekti şəhərin mərkəzini hava limanı ilə birləşdirmək baxımından strateji yoldur. Həmin yolda isə tez-tez sıxlıq, tıxac və digər xoşagəlməz hallar müşahidə olunur. Əslində, bu belə olmamalıdır.

Bunun qarşısını almaq üçün ortaya yeni bir layihə qoyuldu. Keşlə bazarı da məhz buna görə sökülərək digər əraziyə köçürülür. Ümumilikdə isə, Həsən Əliyev küçəsindən başlayaraq Keşlə bazarının ərazisindən keçməklə "Koroğlu" metrostansiyası istiqmətinə çəkiləcək yeni yol Böyük Şor – Pirşağı yolunun davamı hesab oluna bilər. Yeri gəlmişkən, yeni yol layihələri, bir növ, geniş formada əlaqələndirilmiş şəkildə işlənib hazırlanır. Bu layihələrin icrası yalnız və yalnız tıxacların qarşısının alınması ilə mübarizəyə həsr olunur.

Məlum olduğu kimi, Həsən Əliyev küçəsi paytaxtın əsas yollarından biridir. Bu küçə böyük nəqliyyat axını həyata keçirir. Ancaq alternativ variantları və yaxud davamı olmadığına görə Əhməd Rəcəbli küçəsində yerləşən "Şəki" restoranının yaxınlığında sona çatır. Bu səbəbdən də Keşlə bazarı istiqamətində nəqliyyatın hərəkətində böyük çətinliklər yaranır. Eyni zamanda, Koroğlu Rəhimov küçəsi ilə kəsişmədə bəzi problemlər müşahidə olunur. Hər bir halda bu məsələlər elə tənzimlənməlidir ki, nəqliyyat axınının sürəti təmin olunsun.

Yeri gəlmişkən, vaxtilə həmin ərazilərdə müəyyən işlər görülərkən plansız, kor-koranə addımlar atılıb. Bu gün həmin problemlərin aradan qaldırılması üçün cənab Prezidentin tapşırığı ilə yeni, alternativ yol çəkilir. Bu yolun çox böyük perspektivi var. Heç şübhəsiz, yeni yol istifadəyə verildikdən sonra həmin ərazidə tıxacla mübarizənin ən ideal formasının şahidi olacağıq. Yeni yol Böyük Şor – Pirşağı yolu ilə birləşəndən sonra Sabunçu – Zabrat istiqamətində də tıxacların qarşısının alınması mümkün olacaq. Qeyd etdiyim kimi, Heydər Əliyev prospekti ana yol olaraq həddindən artıq yüklənir. Bununla yanaşı, "Koroğlu" metrostansiyası istiqamətində hədsiz dərəcədə yüklənmə olur. Bir məqamı da diqqətə çatdırmaq istəyirəm ki, bu yolda tıxac, əsasən, "Koroğlu"ya çataçatda olur. Həmin ərazini keçdikdən sonra isə azalır, yox olur. Məhz ona görə də həmin əraziyə qədər nəqliyyatın ötürülməsini şaxələndirmək lazım gəldi. Elə yeni alternativ yol layihəsi də bu zərurətdən yarandı. Hazırda həmin layihənin icrası davam etdirilir.

# Sosial xəbərlər

## İnkişaf rifah mənbəyidir



"Azərbaycan Respublikasının 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda nəzərdə tutulan hədəflərin icrası ilə bağlı "İnklüziv sosial inkişaf və sosial təminat" üzrə işçi qrupun növbəti iclası keçirilib.

"İnkişafdan hər bir vətəndaşın bəhrələnməsi" və yüksək və ədalətli sosial təminat, inklüziv cəmiyyət" məqsədləri üzrə ötən il görülmüş işlərin monitorinq və qiymətləndirməsinə dair hesabatın müzakirəsinə həsr olunmuş toplantıda işçi qrupun sədri, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Anar Əliyev əməkhaqqı sisteminin təkmilləşdirilməsi, sosial müdafiə və fəal məşğulluq proqramlarının genişləndirilməsi istiqamətində mühüm addımların atıldığını diqqətə çatdırıb. O, həssas qruplar üçün məşğulluq imkanlarının artırılması, əmək bazarında işçi qüvvəsinə tələb və təklifin uyğunlaşdırılması və rəqabətqabiliyyətli kadr potensialının inkişafı sahələrində aparılan işlərdən də söhbət açıb.

İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinin icraçı direktorunun müavini Ramil Hüseyn strategiyada nəzərdə tutulmuş sosial məqsədlər üzrə həyata keçirilən tədbirlərlə bağlı monitorinq və qiymətləndirmənin bu məqsədlərin icrası prosesində qarşıda duran əsas çağırışları, habelə tövsiyələri müəyyən etmək baxımından önəmini qeyd edib. İşçi qrupun sədr müavini, mərkəzin təhlil şöbəsinin müdir müavini Elnur Ələkbərov "İnkişafdan hər bir vətəndaşın bəhrələnməsi" məqsədi üzrə 3 fəaliyyət – "Əməkhaqqı sisteminin təkmilləşdirilməsi", "Özəl sektorda məşğulluğun inkişafının stimullaşdırılması" və "Məşğulluğun səmərəliliyinin artırılması" istiqamətlərində görülən işlərlə bağlı aparılmış ilkin monitorinq və qiymətləndirmənin nəticələri barədə məlumat verib.

## Kiçik biznesə dəstək

Dünya Bankının maliyyə dəstəyi ilə icra olunan "Məşğulluğa dəstək layihəsi" iştirakçılarına biznes mükafatlarının təqdim edilməsi məqsədilə növbəti "Həvəsləndirmə mükafatları" müsabiqəsinə start verilib.

Məqsəd layihə çərçivəsində 2020–2024-cü illərdə avadanlıqla təmin edilərək istehsal və xidmət sahələri üzrə kiçik bizneslərini qurmuş şəxslərə öz sahibkarlıq fəaliyyətlərini genişləndirmək üçün dəstəyin göstərilməsidir. "Həvəsləndirmə mükafatları" müsabiqəsinə ölkənin bütün şəhər və rayonları üzrə "Məşğulluğa Dəstək Layihəsi" çərçivəsində avadanlıqlar verilməklə kiçik biznesini qurmuş şəxslər müraciət edə bilərlər.

Müsabiqədə iştirak üçün proqram iştirakçılarına dair bəzi tələblər qoyulub. Əvvəla, iştirakçı qeydiyyata alınmış vergi ödəyicisi olmalıdır; özünüməşğulluq proqramı çərçivəsində birinci ilin biznes planını uğurla tamamlamalıdır; son 12 ay ərzində bütün hüquqi və vergi tələblərinə tam şəkildə riayət etməli və cəriməsi olmamalıdır. Bundan başqa, həmin iştirakçı seçdiyi iqtisadi fəaliyyət istiqaməti üzrə hazırda biznes fəaliyyəti ilə məşğul olmalıdır.




Qeyd edilən meyarlara cavab verən benefisiarlara Kiçik və Orta Biznesin İnkişafı Agentliyi biznes planın hazırlanmasında dəstək göstərəcək. Biznes planını müdafiə edərək qalib gələn şəxslərə fəaliyyətlərini genişləndirmək üçün əlavə avadanlıqlar veriləcək. Hər bir benefisiar yalnız bir dəfə bu müsabiqədən faydalana bilər.

***Zərifə HÜSEYNOVA***
***XQ***

**Yeni idman növü ölkəmizdə**

# Qar üstündə voleybol çempionatı



**Azərbaycan üçün, əslində elə dünyada da, yeni idman növlərindən biri sayılan qar voleybolu (Avropada ilk rəsmi yarış 2016-cı ildə keçirilib. 2019-cu ildə isə rəsmi Dünya turu təşkil edilib) üzrə bugünlərdə "Şahdağ" Turizm Mərkəzində Azərbaycan çempionatı keçirildi. Oyun şəraitinin bir qədər çətin olduğu bu nadir idman növü onu izləyənləri öz baxımlığı ilə valeh etdi.**

Çimərlik və qar voleybolu üzrə milli komandaların meneceri Orxan Hüseynzadə isə vurğuladı ki, komandaların hazırlığı, onların yarışda iştirakı, eləcə də oyunların yüksək səviyyədə təşkili üçün Voleybol Federasiyası tərəfindən hər bir tədbir görülmüşdü: "Düşünürəm ki, turnir maraqlı mübarizə şəraitində keçdi. Çempionatın canlı yayımlanması tamaşaçıların oyunları yaxından izləməsi üçün geniş imkanlar yaratdı. Əsas məqsədimiz bu idman növünü ölkəmizdə daha da inkişaf etdirməkdir.

**Orxan Hüseynzadə bu prosesə yeni başladıqlarını və gələcəkdə böyük perspektivlərin olduğunu qeyd etdi".**

– Yerli voleybolçuların milliyə cəlb olunması, onların yığmada inkişafı, yeni idmançıların kəşf olunması istiqamətində işlər davam edir. Məqsədimiz beynəlxalq arenada mübarizə aparacaq çoxlu voleybolçu yetişdirməkdir. Gələcəkdə Avropa çempionatında iştirak etməyi qarşıya məqsəd qoymuşuq. Düşünürəm ki, bu templə davam etsək, qitə yarışlarında iştirak edə və uğur qazana bilərik.





Qar voleybolu ona görə unikal hesab olunur ki, meydançada hava şəraitindən asılı olaraq oyunçular fərqli səthlərdə oynamalı olurlar. Onlar bəzən futbol butsları, yaxud sürüşkən səthə görə digər idman ayaqqabıları geyirlər. Qalın paltar geyinən oyunçular, papaq və əlcək də taxa bilərlər. Unikallığı ilə yanaşı, bu, həm də ekstremal idman növlərindən biri hesab oluna bilər. Çünki voleybolçular şaxtalı hava və çətin oyun şəraitinə adaptasiya olunmalıdır. Bütün bunlara rəğmən ölkəmizin qar voleybolu tarixində ilk dəfə təşkil olunan milli çempionata 4 qadın və 4 kişi komandası olmaqla 8 yığma fəal şəkildə qatılaraq gərgin və maraqlı mübarizə sərgilədilər.

Yarışda "Azərreyl"in həm kişilərdən, həm də qadınlardan ibarət komandaları çempionatın qalibi olaraq bu idman növünün tarixinə düşdülər. Kişilərin mübarizəsində 2-ci yeri "Murov Az Terminal" tutub. Üçüncü pillədə isə U-21 yığması qərarlaşıb. Qadınların yarışında "Murov Az Terminal" gümüş medal qazanıb. Bürünc medala isə "Gəncə" sahib çıxıb.

"Azərreyl"in qızlardan ibarət komandasının baş məşqçisi Nihad Tarverdiyev "Xalq qəzeti"nə açıqlamasında bildirdi ki, ölkəmizdə qar voleybolu üzrə çempionatın təşkili bir yenilikdir. Final qarşılaşmaları olduqca maraqlı və gərgin mübarizə şəraitində keçdi. Başda Azərbaycan Voleybol Federasiyası olmaqla yarışda əməyi keçən hər kəsə təşəkkür edirik. Yüksək səviyyədə keçirilən çempionat həm idmançılarımız, həm də məşqçilər üçün zəngin təcrübə oldu. Sevinirik ki, çempionatı qalib kimi başa vurduq.

Qar voleybolunu, əsasən, dağ kurortlarında, qış çimərliklərində və digər istirahət zonalarında inkişaf etdirmək olar. Ölkəmizdə də son illər qış idman növləri üzrə yarışların təşkili, idmançıların yetişməsi üçün geniş imkanlar yaradılır. Bu gün qış idman növləri üzrə Azərbaycanda nəinki ölkədaxili yarışların, hətta beynəlxalq turnirlərin təşkili üçün də geniş infrastruktur var və bu istiqamətdə işlər davam etdirilir. Əminik ki, gələcəkdə qar voleybolu da ölkəmizdə sevilən və populyar idman növlərindən birinə çevriləcək.

***LA ZAD***
***XQ***

**Bazar günü Belarusda növbəti prezident seçkiləri keçirilib. BELTA agentliyi xəbər verir ki, seçici fəallığı 85,7 faiz olub. İlkin məlumatlara görə, hazırkı dövlət başçısı Aleksandr Lukaşenko seçicilərin, təxminən, 88 faizinin dəstəyini qazanıb. Rəsmi nəticələr fevralın 3-də elan olunacaq.**

# Aleksandr Lukaşenko 6-cı dəfə Belarus Prezidenti seçilib



Prezidentliyə digər namizədlər, ümumilikdə, 7 faizdən bir qədər çox səs toplayıblar. "Exit-poll"un nəticələrinə görə, Belarus Kommunist Partiyasının rəhbəri Sergey Sırankov 3,21, Liberal Demokrat Partiyasının lideri Oleq Gaydukeviç 2,02, müstəqil namizəd, iş adamı Anna Kanopatskaya 1,86, Ədalət və Əmək Partiyasının başçısı Aleksandr Hijnyak 1,74 faiz səs qazana biliblər.

Xatırladaq ki, Belarus Respublikasında ilk prezident seçkiləri 1994-cü ildə keçirilib. Həmin il və sonrakı 6 dəfə keçirilən prezident seçkilərində A.Lukaşenko qalib gəlmişdir. İxtisasca tarixçi və iqtisadçı olan bu dövlət xadimi hələ 1989-cu ildə keçmiş SSRİ Ali Sovetinə deputat seçilmişdi. Bu il onun 71 yaşı tamam olacaq və göründüyü kimi, daha 7 il Belarusun dövlət sükanını idarə etməlidir.

Qeyd etmək lazımdır ki, bir çox Qərb dövlətləri Belarusdakı son prezident seçkisini tənqid ediblər. Məsələn, Avropa diplomatiyasının rəhbəri Kaya Kallas, Avropa İttifaqının genişlənmə üzrə komissarı Marta Kos və Almaniyanın xarici işlər naziri Annalena Baerbok seçkilərin "qeyri-demokratik şəraitdə" keçirildiyi ilə bağlı bəyanatlarla çıxış ediblər.

A.Lukaşenko isə öz növbəsində Avropa İttifaqı (Aİ) rəsmilərinin mövqeyini əsassız və qərəzli hesab etdiyini vurğulayıb. Bu məsələ ilə bağlı yerli və xarici jurnalistlərə bildirib ki, Aİ-nin Belarusda keçirilən prezident seçkilərinin nəticələrini tanımaması bu quruma üzv dövlətlərin "Vaşinqtondakı böyük qardaşların qarşısında "quyruq bulaması" kimi başa düşülməlidir.

A.Lukaşenkonun fikrincə, Donald Trampın Ağ evə yenidən qayıdışı ilə problemlər heç də Belarus üçün deyil, əksinə Avropa üçün yaranacaq. Belarus lideri hesab edir ki, Avropada bir çox siyasətçilər artıq Trampın qələbəsindən sonra vəziyyətdən çıxış yolu tapmaq üçün "ilan kimi qıvrılırlar".

Yeri gəlmişkən, Belarus Prezidenti jurnalistlərə açıqlamasında həmçinin Ermənistan rəhbərliyini Aİ ilə oyuna girməkdən çəkindirib. O, deyib: "Onlar (Ermənistan rəhbərləri-red) Aİ ilə oyun oynamağa başladılar. Çox təhlükəli oyundur. Onu (Ermənistanın baş naziri Nikol Paşinyan – red.) sakitləşdirin. O, Ermənistanı məhv edəcək. Rusiyanı da özünə qarşı qoyur".

A.Lukaşenko Ermənistan rəhbərliyinin Belarusa qarşı "küskünlüyündən" də danışıb: "Azərbaycanı dəstəklədiyimə görə məndən incidilər. Tanrı da bilir ki, mən həmişə sağlam düşüncəni dəstəkləmişəm, müharibənin olmamasının tərəfdarı olmuşam, bir-birimizlə vuruşmamaq üçün".

Bu məqamda vurğulamaq istərdik ki, A.Lukaşenkonun liderliyi ilə Belarus iqtisadiyyatı son 30 ildə xeyli inkişaf edib. Xüsusilə aqrar sahədə nəzərəçarpan uğurlar qazanılıb. Belarus Şərqi Avropanın bir çox ölkələrinə kənd təsərrüfatı, eləcə də keyfiyyətli ağartı məhsulları ixrac edir. Belarusda əhalinin məşğulluğu da kifayət qədər yüksəkdir.

Yeri gəlmişkən, Azərbaycan ilə Belarus dövlətləri arasında bütün sahələrdə qarşılıqlı inam və etimada əsaslanan hərtərəfli əlaqələr yaranaraq inkişaf etmişdir. Hazırda ölkələrimiz arasında ticarət dövriyyəsinin həcmi 300 milyon dollara yaxındır. Hər iki tərəf bu göstəricini artırmaq, iqtisadi-siyasi və mədəni əməkdaşlığı daha da genişləndirmək əzmindədir.

Sonda bildirək ki, Belarus Prezidenti A.Lukaşenko 2007, 2010, 2013 və 2016-cı illərdə 4 dəfə Azərbaycana rəsmi səfər etmişdir. 2015-ci il (Birinci Avropa Oyunlarının rəsmi açılış mərasimində iştirak etmiş, 2021 və 2024-cü illərdə ölkəmizə 3 işgüzar səfər və 2024-cü ildə dövlət səfəri həyata keçirmişdir.

***Məsaim ABDULLAYEV***
***XQ***

# Fələstinlilər Qəzzanın şimalına qayıdırlar

## *"2 dövlətli həll" mövzusu isə yenidən aktuallaşır*

**ABŞ Prezidenti Donald Tramp fələstinlilərin müvəqqəti və ya uzunmüddətli Misir, İordaniya və digər ərəb dövlətlərində yeni tikiləcək evlərə köçürülməsini təklif edib. Bu təklif İordaniya və Misir hakimiyyəti tərəfindən qəti şəkildə rədd edilib. "İordaniya iordaniyalılara məxsus olduğu kimi, Fələstin də fələstinlilərə məxsusdur. Fələstin məsələsinin yeganə həlli 2 dövlətli həll çərçivəsində Fələstinin müstəqilliyinin tanınmasıdır. Biz Qəzza əhalisinin məcburi köçkünlüyünü qəti şəkildə rədd edirik", – deyə İordaniyanın xarici işlər naziri Ayman Safadi bildirib. O, Krallığın fələstinlilərin köçürülməsi ilə bağlı mövqeyinin heç vaxt dəyişməyəcəyinə söz verib: "Biz fələstinlilərin qovulmasını qəbul etmirik. Mövqeyimiz aydındır və dəyişməyəcək".**



Misir Xarici İşlər Nazirliyinin bəyanatında isə bildirilib ki, bu cür hərəkətlər sabitliyi təhdid edir: "Bu, regionda münaqişənin yayılma riskini yaradır, sülh və birgəyaşayış imkanlarını sarsıdır... Misir Fələstin xalqının öz torpaqlarında mövcudluğunun toxunulmazlığını dəstəkləyir və bu təməl hüquqlara hər hansı müdaxiləni rədd edir". Bəyanatda daha sonra bildirilir: "Biz beynəlxalq ictimaiyyəti Fələstinin müstəqilliyini tanımağa və 2 dövlətli həlli dəstəkləməyə çağırırıq".

Misir və İordaniya daha əvvəl də açıq şəkildə bildirmişdilər ki, onlar fələstinlilərin köçürülməsi ideyasını qəti şəkildə qəbul etmirlər, bunu milli təhlükəsizlik və ərazi bütövlüyünə ciddi təhdid kimi görürlər. Misir üçün belə bir ssenari faktiki olaraq İsraillə sülh sazişinin yenidən nəzərdən keçirilməsi və onun pozulması demək olardı. Söhbət Kemp-Devid sazişindən gedir. Misir və İsrail arasında ilkin sülh sazişi 1978-ci ildə Kemp-Deviddə (Meriland ştatı, ABŞ) əldə edilib. 1979-cu ildə Kemp-Devid razılaşmasına əsaslanaraq tərəflər ABŞ-ın himayəsi altında sülh müqaviləsi bağlayıblar. Saziş Yaxın Şərqdə sülh və təhlükəsizliyin qorunması üçün əsas sayılır. Onun pozulması isə müharibə təhlükəsini artırır.

Qeyd edək ki, İsrailin Baş naziri Benyamin Netanyahu müharibənin başlanğıcında ilk dəfə məsələni qaldıranda prezident Əbdülfəttah əs-Sisi belə bir həllin qəbuledilməz olduğunu bildirmişdi.

İordaniya Krallığının isə demoqrafik və sosial strukturunu kökündən dəyişdirən 1948-ci il müharibəsindən sonra fələstinli qaçqınların kütləvi surətdə köçürülməsi ilə bağlı faciəli tarixi təcrübəyə malikdir. Hazırda İordaniyada 2,3 milyon nəfər fələstinli qaçqın yaşayır. İordaniya əhalisinin, təxminən, 30 faizi Fələstin mənşəlidir. Bu insanların əksəriyyəti qaçqın düşərgələrində yaşayır (təxminən 300 min nəfər paytaxt Əmman yaxınlığındakı Əl-Bəqa düşərgəsindədir). Əlavə fələstinli qaçqınların qəbul edilməsi isə bu ölkədə ciddi iqtisadi-siyasi problemlər yarada bilər. Bu səbəbdən də İordaniya Krallığı yeni qaçqın axınında maraqlı deyil.

Fələstin Muxtariyyətinin lideri Mahmud Abbas da eyni mövqedən çıxış edərək qəzzalıların Fələstin anklavından kənarda məskunlaşdırılması ilə bağlı "istənilən layihələri" pisləyib və fələstinlilərin "öz torpaqlarından və müqəddəs yerlərindən əl çəkməyəcəklərini" vurğulayıb.

Trampın təklifi Fələstinin HƏMAS qruplaşmasının rəhbərliyi tərəfindən də qəti şəkildə rədd edilib: "Fələstinlilər yenidənqurma bəhanəsi ilə yaxşı görünsələr belə heç bir təklif və ya həll yolu qəbul etməyəcəklər. Qəzza əhalisi ölümdən sağ çıxıb və vətənlərini tərk etməkdən imtina edib və başqa səbəblərdən asılı olmayaraq, oranı tərk etməyəcəklər".

Amma HƏMAS qruplaşması hərbi əməliyyatlar dayandırıldıqdan sonra Qəzza zolağının idarə edilməsindən imtina edə biləcəyini deyib. Bu barədə "The Times of Israel" qəzeti "Al Arabiya" nəşrinə istinadən məlumat yayıb. HƏMAS-ın Siyasi Bürosunun nümayəndəsi Musa Əbu Mərzuk "Al Arabiya" nəşrinə bildirib ki, qruplaşma İsraillə müharibədən sonra Qəzza zolağını idarə etməyə can atmaya bilər. Onun sözlərinə görə, HƏMAS başa düşür ki, gələcəkdə sektorun idarə edilməsi üçün həm regional, həm də beynəlxalq dəstək, o cümlədən Fələstin rəhbəri Mahmud Abbasın dəstəyi lazım olacaq.

Musa Mərzuk qeyd edib ki, qruplaşma Vaşinqtonun atəşkəs və girovların azad edilməsi ilə bağlı razılaşmanın əldə edilməsinin vasitəçiliyi fonunda ABŞ ilə Qəzza zolağında hökumətin formalaşdırılması barədə danışıqlar aparmağa hazırdır. Onun sözlərinə görə, fələstinlər heç bir vaxt öz torpaqlarını tərk etməyəcəklər: "Bu mümkün deyil".

Fələstinlərin özləri də bu fikirdədir. Yanvarın 27-də səhər saatlarında minlərlə fələstinli İsrailin hücumları nəticəsində tərk edilmiş Qəzza zolağının şimalına qayıtmağa başlayıb. Burada binaların 80-90 faizinin dağıdılmasına baxmayaraq, fələstinlilər öz vətənlərinə qayıtmaq istəklərində israrlıdırlar. Beləliklə, Qəzzanın şimalındakı sakinlərə 15 aylıq döyüşlərdən sonra ilk dəfə öz evlərinə qayıtmağa icazə verilib. HƏMAS-dan bildirilb ki, fələstinlərin geri dönüşü "böyük gün"dür və bu, İsrailin fələstinliləri zorla köçürmək planlarının pozulmasıdır: "Qəzza sakinlərinin geri qayıtması fələstinlilərin qələbəsidir, işğal və köçkünlük planlarının iflasa uğradığını və məhv olduğunu nümayiş etdirir".

Qeyd edək ki, İsrail daha əvvəl məhbus mübadiləsinin ikinci mərhələsi ilə bağlı fikir ayrılıqlarına görə fələstinlilərin Qəzzanın şimalına qayıtmasına icazə verməyəcəyini bildirmişdi. İsrail mediası yazmışdı ki, Arbel Yehudun azadlığa buraxılması məsələsi böhrana səbəb olub, çünki o, HƏMAS-ın deyil, "İslami Cihad" hərəkatının əlindədir. Bu, razılaşmanın şərtlərinin yerinə yetirilib-yetirilməməsi ilə bağlı mübahisələrə səbəb olub. Bununla belə, vasitəçilər fikir ayrılıqlarını aradan qaldıra biliblər.

Razılaşmaya əsasən, HƏMAS cümə axşamı üç nəfəri azad edəcək. Onların arasında Arbel Yehud, hərbçi Agam Berger və daha bir girov var. Atəşkəs razılaşmasında nəzərdə tutulduğu kimi, şənbə günü daha üç nəfər azad ediləcək. İndi tərəflər şənbə gününə planlaşdırılan məhbus mübadiləsinin növbəti mərhələsi üzrə danışıqları davam etdirməyə hazırdırlar.

Martın əvvəlinə qədər davam edəcək atəşkəsin birinci mərhələsinə əsasən, HƏMAS İsraildə cəza çəkən 2 minə yaxın fələstinlinin azad edilməsi müqabilində 33 girovu azad etməlidir. Ümumilikdə, yaraqlıların əlində 2023-cü il oktyabrın 7-də əsir götürülmüş 90-a yaxın adam var.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Əmanətlərin Sığortalanması Fondu üzv bankların reyestrini ictimaiyyətin diqqətinə təqdim edir

Əmanətlərin Sığortalanması Fondu «Əmanətlərin sığortalanması haqqında» Azərbaycan Respublikası Qanununun 30.1-ci maddəsinə əsasən iştirakçı bankların 27 yanvar 2025-ci il tarixinə olan reyestrini ictimaiyyətin diqqətinə çatdırır:



| | Reyestrə daxil olma tarixi | Bankın adı |
|---|---|---|
| 1 | 30.07.07 | ASC "XALQ" Bankı |
| 2 | 30.07.07 | "Azərbaycan Beynəlxalq Bankı" ASC |
| 3 | 30.07.07 | "ACCESSBANK" QSC |
| 4 | 30.07.07 | Melli İran Bankı Bakı filialı |
| 5 | 30.07.07 | "Azər-Türk Bank" ASC |
| 6 | 30.07.07 | "Bank of Baku" ASC |
| 7 | 30.07.07 | "Bank Respublika" ASC |
| 8 | 30.07.07 | "Kapital Bank" ASC |
| 9 | 30.07.07 | "YELO BANK" ASC |
| 10 | 30.07.07 | "Rabitəbank" ASC |
| 11 | 30.07.07 | "TURANBANK" ASC |
| 12 | 30.07.07 | "UNİBANK" KB ASC |
| 13 | 30.07.07 | Yapı Kredi Bank Azərbaycan QSC |
| 14 | 07.08.07 | "Expressbank" ASC |
| 15 | 10.09.07 | "Azərbaycan Sənaye Bankı" ASC |
| 16 | 04.12.07 | "Bank Avrasiya" ASC |
| 17 | 04.12.07 | "Paşa Bank" ASC |
| 18 | 16.01.09 | "AFB BANK" ASC |
| 19 | 26.02.09 | BANK VTB (AZƏRBAYCAN) ASC |
| 20 | 28.04.09 | PREMIUM BANK ASC |
| 21 | 15.04.10 | Bank "BTB" ASC |
| 22 | 15.05.15 | "Ziraat Bank Azərbaycan" ASC |

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 18 (30712) 28 yanvar 2025-ci il, çərşənbə axşamı

# Donald Tramp süni intellektə geniş “qapı”açdı

## “Stargate” ABŞ-a və dünyaya nə vəd edir?

**Amerika Birləşmiş Ştatlarının OpenAI (chatbot ChatGPT-nin tərtibatçısı), “Oracle Corp”, Yaponiyanın SoftBank və Birləşmiş Ərəb Əmirliyinin investisiya şirkəti MGX ABŞ-da süni intellekt infrastrukturunun yaradılması məqsədilə birgə “Stargate” müəssisəsi yaradacaq. Birləşmiş Ştatlar bununla AI sahəsində lider mövqeyini daha da gücləndirməyi düşünür. Amma bu layihəyə şübhə ilə yanaşanlar da az deyil.**



“Stargate”in OpenAI üçün məlumat mərkəzləri quracağı gözlənilir. Birinci mərhələdə şirkətlər birgə müəssisəyə 100 milyard dollar, 4 il ərzində isə 500 milyard dollara qədər sərmayə qoyacaqlar. Ancaq hər bir şirkətin nə qədər sərmayə qoyacağı dəqiqləşdirilməyib. Mənbələrin məlumatına görə, 100 milyard dollara Co Baydenin prezidentliyi dövründə elan edilmiş layihələr də daxildir. “Stargate”in ilk məlumat mərkəzi Texasda yerləşəcək. Microsoft, Arm Holdings və Nvidia da “texnoloji tərəfdaşlar” kimi infrastrukturun yaradılmasında iştirak edəcəklər.

Xatırladaq ki, ABŞ Prezidenti Donald Tramp Ağ evdə OpenAI-nin baş direktoru Sem Altmanın, “Oracle Corp” şirkətinin baş direktoru Larri Ellison və SoftBank-ın baş direktoru Masayoşi Sonun iştirakı ilə keçirilən görüşdə “Stargate”in yaradılmasını elan etmişdi. Məlumatlara görə, birgə müəssisəni OpenAI idarə edəcək, SoftBank isə onu maliyyələşdirəcək. “Stargate”də Masayoşi Sonun sədrlik etdiyi ayrıca idarə heyəti olacaq. Baş direktor hələ təyin olunmayıb.

Elan edilən 500 milyard dollarlıq layihə “Silikon Vadisi standartlarına görə də böyükdür”. ABŞ KİV-i yazır ki, “Stargate”in yaradılması texnoloji şirkətlərin və ABŞ hökumətinin Birləşmiş Ştatların iqtisadiyyatı üçün gələcəyin texnologiyası kimi süni intellektə nə dərəcədə önəm verdiyini təsdiqləyir. “Goldman Sachs” korporasiyası da hesab edir ki, şirkətlər, o cümlədən Amerika texnoloji nəhəngləri, məlumat mərkəzləri, çiplər və süni intellekt sistemləri üçün xərclər də daxil olmaqla, yaxın illərdə süni intellektin inkişafına təxminən 1 trilyon dollar xərcləyəcəklər.

Ancaq dünyanın ən varlı adamı İlon Mask “Stargate” layihəsinin həyata keçirilməsinə şübhə ilə yanaşdığını açıqlayıb. O bildirib ki, layihədə iştirak edəcək şirkətlərin vəsaitləri yoxdur. Amerikalı iş adamının sözlərinə görə, xüsusilə SoftBank-ın 10 milyard dollardan “xeyli az” vəsaiti var. Ancaq OpenAI-nin baş direktoru Sem Altman bu açıqlamanı yanlış adlandıraraq İlon Maskın özünün də bunu yaxşı bildiyini qeyd edib. O, iş adamını artıq fəaliyyətdə olan ilk “Stargate” data mərkəzinə baş çəkməyə dəvət edib.

Təbii ki, İlon Mask bilməmiş deyil ki, prezident Donald Tramp ABŞ-ın süni intellekt siyasətini dəyişdirir. Daha doğrusu, Ağ evin sahibi ABŞ-ın süni intellektin tənzimlənməsinə yanaşmasını dəyişir. O, Bayden administrasiyasının texnologiyanın inkişafına mane olan “zərərli siyasət” həyata keçirdiyini söyləyib. İndi Amerika şirkətləri bu sahədəki tədqiqatlarla maneəsiz məşğul ola biləcəklər. Cənab Tramp artıq müvafiq sərəncam da imzalayıb. Xatırladaq ki, o, seçki kampaniyası zamanı ABŞ-ı dünya gücünə çevirəcək siyasət yürüdəcəyinə söz vermişdi və vədini yerinə yetirdiyini göstərir. ABŞ Prezidentinin fikrincə, Birləşmiş Ştatlar bir çox strateji sahələrdə hakim mövqeyə malik olmalı və məsələn, texnologiya sənayesində davam edən inqilabın tonunu təyin etməlidir.

Məhz buna görə də cənab Tramp dövlət başçısı kimi ikinci müddətinin ilk günlərindən sələfinin yürütdüyü siyasətdən imtina edərək əhəmiyyətli dəyişikliklər edir. Yeni prezidentin qərarları Amerika texnologiya şirkətlərinə öz bizneslərini inkişaf etdirməyə və innovasiyalar üzərində işləməyə kömək etmək üçün nəzərdə tutulub. ABŞ mediası yazır ki, Ağ evin yeni sahibi süni intellektə xüsusi diqqət yetirir. Bu fakt da onu təsdiqləyri ki, ABŞ bu sahədə də hökmranlıq etməyə çalışacaq. Birləşmiş Ştatlar xüsusilə də rəqib kimi gördüyü Çinin bu sahədə əldə etdiyi uğurların “təhlükəli səviyyədə” olduğunu iddia edir və AI araşdırmalarının gücləndirilməsini vacib sayır.

Amma statistika göstərir ki, Çin və digər ölkələr süni intellekt sahəsində müəyyən nailiyyətlərə nail olsalar da, ABŞ-dan geridədirlər. Məsələn, Stanford Universitetinin hazırladığı hesabata görə, ABŞ süni intellekt sahəsində dünya lideridir, Çin isə ikinci yerdədir. Hesabata görə, ABŞ özəl investisiyalar baxımından Çini əhəmiyyətli dərəcədə geridə qoyur. Belə ki, 2023-cü ildə Çin AI sahəsinə 7,76 milyard dollar vəsait yatırdığı halda, ABŞ süni intellekt araşdırmalarına 67,22 milyard dollar vəsait xərcləyib.

Bununla belə, hesabatda qeyd olunur ki, Çin süni intellekt ilə bağlı patentləşdirmədə sabit artım nümayiş etdirib və ABŞ-dan təxminən üç dəfə çox süni intellekt patenti verib. 2017-ci ildən 2023-cü ilə qədər Çinin 44 mindən çox, ABŞ-ın isə 15 mindən çox patent verdiyi bildirilir. Hesabatda Çin və ABŞ arasında “əhəmiyyətli bir məsafə” olduğu bildirilsə də, “Çinin qabaqcıl AI texnologiyalarının inkişafına və sektora investisiyaların artırılmasına diqqət yetirməsi Pekini süni intellekt sahəsində böyük güc kimi mövqeləndirir”.

Bütün bunlar belə deməyə əsas verir ki, dünya ABŞ-ın və digər inkişaf etmiş ölkələrin süni intellekt sahəsində yeni, ancaq daha sərt mübarizəsinin şahidi olacaq. Əlbəttə, sağlam rəqabətin inkişafa səbəb olduğu barədə faktlar yetərincədir. Ancaq süni intellekt sahəsində kəskin rəqabətin bəşəriyyət üçün hansı nəticələrə gətirib çıxaracağı barədə hələlik birmənalı proqnoz verilmir. Ümid edək ki, nəticələr bəşəriyyət üçün təhlükəli olmayacaq.

**Səbuhi MƏMMƏDOV**
**XQ**

**İdman**

## Poloçularımız Dünya kubokunda 2-ci olublar



**Azərbaycanın “Land of Fire” komandası İsveçrənin Sankt Moritz şəhərində keçirilən qar polosu üzrə 40-cı dünya kubokunda növbəti qələbəsini qazanıb.**

Heydər Əliyev Fondu və Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə növbəti dəfə yarışa qatılan “Land of Fire” komandası finalda İsveçrənin “The Kusnacht Practice” yığması ilə qarşılaşıb. Gərgin keçən mübarizə şəraitində Azərbaycan millisi 5-4,5 hesabı ilə turniri ikinci yerdə tamamlayıb.

Yarışın sonunda idmançılarımız müxtəlif xatirə hədiyyələri ilə təltif olunublar.

## Badmintonçularımız İranda – 2 medal



**Azərbaycanın gənc badmintonçuları İranın Simnan şəhərində keçirilən beynəlxalq turnirdə uğurla çıxış ediblər.**

Badminton Federasiyasından bildiriblər ki, yarışda milli komandanın üzvləri 2 kateqoriya üzrə fərqləniblər. Leyla Camalzadə – Həcər Nuriyeva tandemi 19 yaşadək badmintonçuların mübarizəsində qızıl medala layiq görülüb. Yarışa 1/8 finaldan başlayan idmançılar bütün görüşlərini qələbə ilə başa vurublar.

Ülvi Hüseynov – Əmirxan İmanov cütlüyü isə müvafiq kateqoriya üzrə yarımfinala kimi irəliləyərək bürünc medala yiyələnib.

## Güləşçilərimiz Varnada – 3 medal



**Bolqarıstanın Varna şəhərində keçirilən “Dan Kolov – Nikola Petrov” turnirini sərbəst güləşçilərimiz 3 medalla başa vurublar.**

Murad Haqverdiyev (65 kq) ilk mərhələdə bolqarıstanlı Nikola Stefanova, sonrakı mərhələdə ölkənin digər təmsilçisi Erdal Qalipə qalib gəlib. Yarımfinalda Haqverdiyev ukraynalı Erik Aruşanyandan da güclü olub. Finalda rəqibinə sonuncu xal prinsipinə əsasən məğlub olan Murad ənənəvi yarışda gümüş medalı boynundan asıb. Beləliklə, sərbəst güləşçilərimiz yarışda 2 gümüş və 1 bürünc medal qazanıblar.

Qeyd edək ki, daha əvvəl Sadiq Mustafazadə (92 kq) gümüş, Ceyhun Allahverdiyev (61 kq) isə bürünc medala yiyələniblər.

**L.QURBANOVA**
**XQ**

***✓ 2024-cü il oktyabrın 22-də” İnternational Medical Centre” - Bakı Qapalı Səhmdar Cəmiyyəti tərəfindən Cəbrayılzadə Elvira Vüqar qızının adına verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.***

***✓ “Azərbaycan Televiziya və Radio Verilişləri” QSC tərəfindən Mirzəyev İlyas Bəhmən oğlunun adına verilmiş buraxılış vəsiqəsi itdiyi üçün etibarsız sayılır.***




## Afrika 2 hissəyə parçalana bilərmi?!

**Afrika materiki çat nəticəsində ikiyə bölünəcək. Tədqiqatçıların son araşdırmalarında parçalanmanın artıq iki dəfədən də çox sürətləndiyi üzə çıxıb. Xəbəri “Reuters” yayıb.**



Belə ki, Efiopiya səhrasında 56 kilometr uzunluğunda olan çat 2005-ci ildə yaranıb və o vaxtdan bəri genişlənir. Əvvəllər tədqiqatçılar parçalanmanın on milyonlarla il çəkəcəyini düşünürdülər. Lakin amerikalı professor Ken Makdonald bunun 1–5 milyon il ərzində baş verəcəyini bildirib.

Parçalanma nəticəsində Şərqi Afrika qitənin qalan hissəsindən okean suları ilə ayrılacaq.

**FİDAN**
**XQ**

**Hava**

## Yağmursuz və dumanlı

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən,yanvarın 28-də Bakıda və Abşeron yarımadasında havanın dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin gündüz yarımadanın bəzi yerlərində az çiskinli olacağı ehtimalı var.**



Mülayim cənub-şərq küləyi əsəcək. Gecə 3-6°, gündüz 7-11° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 771 mm civə sütunu təşkil edəcək, nisbi rütubət 70-80 faiz olacaq. Azərbaycanın rayonlarında əsasən yağmursuz keçəcək. Bəzi yerlərdə arabir duman olacaq. Şərq küləyi əsəcək. Havanın temperaturu gecə 1° şaxtadan 4°-dək isti, gündüz 7-12° isti, dağlarda gecə 5-10° şaxta, yüksək dağlıq ərazilərdə 10-14° şaxta, gündüz 3° şaxtadan 2°-dək isti olacaq.

**Q.QASIMOV**
**XQ**

## ALLAH RƏHMƏT ELƏSİN

Azərbaycan Respublikası Prezidenti Administrasiyasının şöbə müdiri Süleyman İsmayılov və şöbənin kollektivi Əjdər Səmədzadəyə atası

**ELMAN SƏMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev və universitetin professor-müəllim heyəti universitetin əməkdaşı Könül Süleymanıya atası

**YAŞAR SADATOVUN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

“Xalq qəzeti”nin məsul katibi İlqar Rüstəmov və qəzetin əməkdaşı Hacı Qabil Əliyev filologiya elmləri doktoru, professor İslam Qəribliyə oğlu

**İLHAMIN**

vaxtsız və faciəli vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

**BAŞ REDAKTOR**
**ƏFLATUN AMAŞOV**

**TELEFONLAR:**
**Reklam və elanlar: 493-82-21**
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

“Xalq qəzeti”nin kompüter mərkəzində yığılıb və səhifələnib, “Azərbaycan” nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3055
SİFARİŞ 185
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ

Çapa imzalanmışdır 00:00